Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

11 İYUN 2019-cu il

№ 101 (3999)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# «AZƏRBAYCAN HƏRBÇİLƏRİNİ ÖLDÜRÜB DANIŞIQLARI POZANA MÜKAFAT» - PAŞİNYANLA HƏRBİ NAZİRİN FORMAL ZİDDİYYƏTİ ERMƏNİSTANI İFŞA ETDİ...

səh. 8

Heydər Əliyev hakimiyyətə gətirilməsəydi - AXC-Müsavatın ölkəni apardığı yolun sonu...

səh. 3

Ermənistan Azərbaycanı hərbi təlimlərin birini real döyüşə çevirmək zorunda buraxır...

səh. 9

Azərbaycan XİN separatçı Qarabağ rejimi ilə qardaşlaşma sazişini ləğv edən Fransa məhkəməsinin qətnaməsi barədə bəyanat yaydı

səh. 2

2020-ci il prezident seçkiləri və Ermənistanla separatçı rejimin silahlı qarşıdurması...

səh. 7

Ermənistan "XXI əsr Türk əsri" ideyasına guya alternativ çıxardı - "XXI əsr erməni əsri"...

səh. 5

Kəskinləşən ABŞ-Çin ticarət müharibəsindən salamat çıxan olmayacaq - Azərbaycandan başqa...

səh. 6

Şərqiyyə Məmmədova İstanbulda yaşayan əmək miqrantlarımızın 500 nəfərdən çox uşaqlarına yazıb-oxumaq öyrədir...

səh. 11

"Qaloş piri" də gördük

səh. 15




səh. 10

## Mərkəzi Bank kredit faizlərini endirdikcə kommersiya bankları varlanır - həm də əhalinin hesabına...



Aprel məğlubiyyətini araşdıran «Paşinyan komissiyası» özünü «daşa dirədi» - məğlubiyyətin rəsmi etirafı...

səh. 5

İrqçiliyə və Dözümsüzlüyə qarşı Avropa Komissiyasından Azərbaycana qarşı 2 ədalətsizlik...

səh. 3




Keçmiş bank kollektorlarının dəhşətli cinayətləri - banklar hətta residivistləri müştərilərin üstünə yönəldirmiş...

səh. 11

səh. 8

Ermənistan məmurları Qars və İğdırın "HDP"çi bələdiyyələrində Türkiyə əleyhinə qorxulu missiyalar aparır...



səh. 4

Cavad xanın bərpa olunmuş bayrağı böyük qalmaqal çıxardı...



səh. 4

Pənah Hüseyn dövlət cinayəti edib?



səh. 10

Ölkədə kombayn azlığı var, taxıl batır, Kənd Təsərrüfatı Nazirliyindən reaksiya...



səh. 13

Bir ildə 15 min boşanma - Azərbaycan üçün çox deyilmi...



### Prezident İlham Əliyev Kasım-Jomart Tokayevi prezident seçilməsi münasibətilə təbrik edib

**Prezident İlham Əliyev Kasım-Jomart Tokayevə təbrik məktubu ünvanlayaraq, onu Qazaxıstan prezidenti vəzifəsinə seçilməsi münasibətilə təbrik edib.**

Prezident deyib ki, Azərbaycan-Qazaxıstan münasibətləri xalqlarımızın ortaq tarixi, milli-mənəvi köklərindən qaynaqlanır:"İnanıram ki, belə möhkəm təmələrə əsaslanan dövlətlərarası münasibətlərimizin və strateji tərəfdaşlığımızın bundan sonra da inkişaf etdirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın daha da dərinləşdirilməsi istiqamətində birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Qazaxıstan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram".

### Azərbaycan XİN Cənubi Osetiyadakı qondarma "seçkilər"i tanımır

**Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Cənubi Osetiyada keçirilmiş qondarma "seçkilər"lə bağlı açıqlama yayıb.**

Bu barədə baki-xeber.com-a Nazirliyin Mətbuat Xidməti idarəsindən məlumat verilib. Nazirliyin açıqlamasında deyilir: "Azərbaycan XİN Gürcüstanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edir və beynəlxalq hüququn kobud pozulması olan Cənubi Osetiyada keçirilmiş qondarma "seçkiləri" tanımır.

### Müdafiə naziri Zakir Həsənov "Sarsılmaz qardaşlığı" daha da möhkəmləndirmək üçün Naxçıvana gedib

**İyunun 10-da Müdafiə naziri Zakir Həsənov "Sarsılmaz qardaşlıq-2019" birgə döyüş atışlı taktiki təlimi izləmək məqsədilə Naxçıvan şəhərinə gedib.**



İyunun 7-də start götürən Naxçıvanda "Sarsılmaz qardaşlıq-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimə 5000 nəfərədək şəxsi heyət, 200-dən artıq tank və digər zirehli texnika, 180-ə yaxın müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 21 ədəd təyyarə, helikopter, pilotsuz uçuş aparatı və silahlanmaya yeni daxil edilmiş müxtəlif növ müasir silah və texnika nümunələri cəlb olunub.

Təlimin məqsədi qərargahların müştərək döyüş əməliyyatları planlarının hazırlanması, şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması və birgə tapşırıqları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaqdır.

"Sarsılmaz qardaşlıq-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi iyunun 11-dək davam edəcək.

# Beynəlxalq Memarlar İttifaqının prezidenti Bakının mənzərəsindən dərin təəssürat aldı

**Prezident İlham Əliyev iyunun 10-da Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonyerın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



Dövlət başçısı "Tarixi şəhərlərdə kütləvi turizm" Beynəlxalq Memarlıq Forumunun Bakıda keçirilməsindən məmnunluğunu ifadə edərək, bu tədbirin beynəlxalq əməkdaşlıq baxımından önəmini vurğulayıb. Bakının qədim tarixi ənənələrə malik olduğunu vurğulayan Prezident İlham Əliyev bununla bərabər paytaxtımızın sürətlə inkişaf etdiyini və müasir infrastrukturun yaradıldığını qeyd edib. Dövlət başçısı hazırda ölkəmizin xarici turistlər üçün cəlbedici məkana çevrildiyini qeyd edərək qonaqların sayının durmadan artdığını bildirib.

Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonyer Bakıya gələn hər bir qonaqda buradakı inkişaf proseslərinin, tarixi və müasir tikililərin dərin təəssürat yaratdığını qeyd edib. Bakının beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilməsinin və infrastruktura qoyulan investisiyaların paytaxtımızın inkişafına böyük töhfə verdiyini vurğulayan Tomas Vonyer nümayəndə heyəti adından "Tarixi şəhərlərdə kütləvi turizm" Beynəlxalq Memarlıq Forumunun keçirilməsi ilə bağlı göstərilən qonaqpərvərliyə görə Azərbaycan tərəfinə, o cümlədən Azərbaycan Memarlar İttifaqına minnətdarlığını bildirib. Qonaq Bakının inkişafı ilə bağlı əldə edilmiş nailiyyətlərlə əlaqədar təbriklərini dövlət başçısına çatdırıb.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Bakıda həyata keçirilən inkişaf prosesləri ilə yanaşı, tarixi irsin qorunması işinə də böyük diqqət verildiyini qeyd edib. Eyni zamanda, dövlət başçısı Azərbaycanda əhalinin sayının artması ilə əlaqədar müvafiq infrastruktur layihələrinin də həyata keçirilməsinə böyük önəm verildiyini bildirib.

# Azərbaycan XİN separatçı Qarabağ rejimi ilə qardaşlaşma sazişini ləğv edən Fransa məhkəməsinin qətnaməsi barədə bəyanat yaydı

**Fransa ədliyyə orqanları bu ölkənin Arnuvil şəhəri və 1992-ci ildən bəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanan Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda yaradılmış qondarma qurumu təmsil edən Şeher inzibati bölgəsi arasında imzalanmış dostluq xartiyasını qeyri-qanuni elan edib və onu ləğv edib.**

Azərbaycan Xarici İşlər Nazirliyindən baki-xeber.com-a verilən məlumata görə, bu, Azərbaycanın işğal edilmiş torpaqlarında formalaşdırılmış qondarma qurumla həmrəylik nümayiş etdirmək naminə bitərəflik prinsiplərinə qəsdən məhəl qoymamaq yolunu seçən yolunu azmış bəzi yerli seçkili və bir sıra yerli hakimiyyət orqanları rəsmilərinin sonunu gətirəcək hüquqi presedentdir.

Cergy-Pontoise İnzibati Məhkəməsi "Fransanın beynəlxalq öhdəliklərinə hörmət etmir" və "Dövlətin müstəsna səlahiyyəti olan Fransanın xarici siyasətinə qarşı çıxır" arqumentlərini rəhbər tutaraq, sözügedən xartiyanı ləğv edib.

Xatırlatmaq lazımdır ki, 20 dekabr 1993-cü ildə Fransa ilə Azərbaycan arasında imzalanmış "Dostluq, anlaşma və əməkdaşlıq haqqında müqavilə"nin 2-ci maddəsində tərəflər beynəlxalq təhlükəsizliyin təmin edilməsi, münaqişələrin qarşısının alınması, dövlətlərarası münasibətlərdə beynəlxalq hüququn rəhbər tutulması, beynəlxalq səviyyədə tanınmış sərhədlərin pozulmaması prinsipinə hörmət edilməsi naminə səylərini birləşdirəcəklərinə dair üzərlərinə öhdəliklər götürüb.

Fransanın beynəlxalq öhdəliklərinə uyğun olaraq ilk növbədə vurğulamaq lazımdır ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyinə və ərazi bütövlüyünə hörməti təsdiq edən, Azərbaycanın işğal edilmiş bütün ərazilərindən Ermənistan silahlı qüvvələrinin dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb edən BMT TŞ tərəfindən 1993-cü ildə qəbul edilmiş qətnamələr rəsmi Paris tərəfindən dəstəklənib.

Bundan başqa, suveren dövlətin milli birliyini və ərazi bütövlüyünü pozmaq məqsədi daşıyan, eyni zamanda qovma və ya etnik təmizləmə həyata keçirməklə bir araya sığmadığı yenidən təsdiqlənmiş "xalqların öz müqəddaratını təyinetmə hüququ"ndan istifadəyə icazə verməyən beynəlxalq hüququn prinsiplərinə hörmət etmək lazımdır.

Bununla yanaşı, işğal olunmuş ərazilərdən zorla qovulmuş yüz minlərlə azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarını tələb edən insan hüquqları prinsipi və beynəlxalq humanitar hüququn prinsiplərinə hörmət edilməli, onlar öz yurdlarına, evlərinə geri qaytarılmalı, kəndlər və şəhərlər ən qısa zamanda bərpa edilməlidir. Söhbət 1989-cu ildə əhalinin təqribən 24%-i təşkil edən 40 min azərbaycanlının Dağlıq Qarabağdan, həmçinin, 1992-1993-cü illərdə işğal edilmiş Dağlıq Qarabağın ətrafındakı yeddi rayondan qovulmuş azərbaycanlılardan gedir.



Bu şərtlər altında seçkili və ya yerli hakimiyyət orqanları tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərdində yaradılmış və Fransa tərəfindən tanınmayan qeyri-qanuni separatist qurum olan qondarma "Dağlıq Qarabağ Respublikası"nı təmsil edən yerli orqanlarla "dostluq xartiyaları"nın imzalanması Fransanın beynəlxalq fəaliyyətinin ardıcıllığını ciddi şəkildə sarsıdır və xalqlar arasında qarşılıqlı anlaşmanın təməlini, o cümlədən beynəlxalq diplomatik münasibətlərin inkişafının harmoniyasını təhdid edir.

1997-ci ilin yanvarından bəri ABŞ və Rusiya ilə birlikdə ATƏT-in Minsk Qrupunun həm-sədri olan Fransanın öhdəlikləri Dağlıq Qarabağ münaqişəsinin ədalətli və sülh yolu ilə həllinin tapılmasını təşviq edir və "qanunsuz xartiyaların" ləğvinə dair Fransa hökumətinin möhkəm mövqeyi təkcə Ermənistan və Azərbaycanda deyil, eləcə də Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyə təhdid olan uzun müddət davam edən bu çıxılmaz vəziyyəti irəli apara bilər.

Münaqişənin ədalətli həlli yalnız region ölkələrinin deyil, Fransa da daxil olmaqla Avropalı tərəfdaşların faydalanacağı Cənubi Qafqaz regionunun dayanıqlı inkişafı və geniş regional əməkdaşlıq üçün əlverişli şərait yaradacaq.

**Aydın Quliyev tanınmış sənətşünas Binnət Hümbətoğluna anası Ziba xanımın vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**

**İradə Sarıyeva tanınmış sənətşünas Binnət Hümbətoğluna anası Ziba xanımın vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**

# Heydər Əliyev hakimiyyətə gətirilməsəydi - AXC-Müsavatın ölkəni apardığı yolun sonu...

**Müstəqillik tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günü ölkəmizdə böyük təntənə ilə qeyd edilir. Həmin gün Azərbaycan xalqı üçün unudulmaz tarixlərdən və şanlı bayramlardan biridir. İndiki nüfuzlu, güclü, müstəqil Azərbaycan dövləti məhz Milli Qurtuluş Günü sayəsində sayılıb-seçilən müasir dünya dövlətləri sırasına qoşulub.**



## *Seyid Camal Əzimbəyli: "1993-cü ilin iyununda Heydər Əliyev Bakıya gəlməsəydi, Azərbaycan dövləti dünya xəritəsindən silinərdi"*

Həmin gündən başlayaraq, ümummilli lider Heydər Əliyev Azərbaycan xalqını və bütövlükdə, Vətənimizi düçar olduğu ağır bəlalardan, məhv olmaqdan qurtardı. Müstəqil dövlətimizin sürətli inkişafı, beynəlxalq aləmə inteqrasiyası üçün bütün imkanlardan istifadə etdi.

Dövlət müstəqilliyini əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq daha çətin və önəmlidir. 1990-cı illərin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi proseslər, qarşıdurmalar fonunda xarici dövlətlərin kəşfiyyat orqanlarının daxilimizdəki simasız dairələrlə birləşərək törətdikləri əməllər nəticəsində ölkəmizdə yaranmış ümumi gərgin vəziyyət bunu bir daha təsdiq edirdi. Azərbaycan xalqı tarixi şansdan istifadə edərək ikinci dəfə qazandığı müstəqilliyi həmin illərdə əldən vermək üzrə idi. Belə bir vəziyyətdə, 1993-cü il iyunun 9-da ulu öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya gəldi.

1992-ci ildə silah gücünə iqtidara gələn AXC hakimiyyəti ölkəni elə bir bərbad vəziyyətə salmışdı ki, müstəqilliyimiz ciddi təhlükə qarşısında idi. Ölkədə anarxiya, xaos, hərcmərclik hökm sürürdü. Respublikada qanunsuz silahlı quldur dəstələri meydan sulayırdılar. İqtidarın səriştəsizliyi nəticəsində Azərbaycan iqtisadi böhranın məngənəsində boğulur, parçalanırdı. 1993-cü il iyunun 4-də Gəncədə başlayan qanlı hadisələr ölkənin müstəqilliyi üçün çox ciddi təhlükə yaratmışdı. AXC-Müsavat iqtidarı bu addımın qarşısını almaq üçün heç bir iş görmək gücündə deyildi. Çünki siyasətdə təcrübəsizliyə, səriştəsizliyə, qorxaqlığa və qətiyyətsizliyə yer yoxdur. O vaxt ölkəni ancaq Heydər Əliyev xilas edə bilərdi. Xalqımızı nicata aparan yol bilavasitə iyunun 9-da başlandı. Həmin gün ulu öndər Heydər Əliyev Bakıya gəldi. Ali Sovetin 1993-cü il iyunun 15-də keçirilən sessiyasında deputatlar böyük səs çoxluğu ilə dahi Heydər Əliyevi parlamentin sədri seçdilər. Heydər Əliyevin Ali Sovetin sədri seçilməsi Azərbaycan dövlətçiliyinin qorunması baxımından bir dönüş oldu. Azərbaycanın milli dövlətçilik ənənələrinin bərpa edilməsi və möhkəmləndirilməsi istiqamətində çox mühüm bir addım atıldı.

*"Onun gərgin əməyi sayəsində atəşkəs əldə edildi, ordu komplektləşdirildi, pərakəndəliyə son qoyuldu"*

Bütün bu deyilənlərin fonunda, Heydər Əliyev 1993-cü ilin iyununda Bakıya gəlməsəydi, AXC-Müsavat hakimiyyəti ölkəni hara aparardı?

**Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, 1993-cü ilin iyununda Heydər Əliyev Bakıya gəlməsəydi, Azərbaycan dövləti dünya xəritəsindən silinərdi:** "O dərəcədə ölkədə mürəkkəb vəziyyət yaranmışdı. Yoxdan var olmuş Azərbaycan dövləti çox ciddi təhlükə ilə üz-üzə idi. Azərbaycanı bölmək istəyən bildiyimiz və bilmədiyimiz qüvvələr var idi. Həmin qüvvələrlə münasibətlərin qurulması, geosiyasi tarazlığın bərpa olunması Heydər Əliyevin apardığı siyasət nəticəsində mümkün oldu. Həmin dövrdə o zamankı hakimiyyət israrla Heydər Əliyevi Bakıya dəvət etdi. Heydər Əliyev xalqın və dövlətin mənafeyindən çıxış edərək çox doğru qərar verdi. Azərbaycan dövlətini məhv olmaqdan xilas etdi. Azərbaycan dövlətinin sonrakı dövrdə möhkəmlənməsi onun sayəsində mümkün oldu. Bu faktdır və bunu danmaq olmaz. Heydər Əliyevin gərgin əməyi sayəsində atəşkəs əldə edildi, ordu komplektləşdirildi, pərakəndəliyə son qoyuldu. Atəşkəs sazişi imzalanandan 4 ay sonra xarici neft şirkətləri ilə "Əsrin kontraktı" imzalandı. Sözügedən saziş ölkəyə xarici sərmayənin gəlməsinə zəmin yaratdı. Ölkədə iqtisadi tənəzzülə son qoyuldu. Azərbaycanın xarici dövlətlərlə əlaqələri genişləndi və bu sahədə münasibətlər daha da inkişaf etdi. Bir sözlə, Heydər Əliyevin qayıdışı Azərbaycanı xilas etdi".

***Vidadi ORDAHALLI***

# İrqçiliyə və Dözümsüzlüyə qarşı Avropa Komissiyasından Azərbaycana qarşı 2 ədalətsizlik...

**İrqçiliyə və Dözümsüzlüyə qarşı Mübarizə üzrə Avropa Komissiyası hesab edir ki, Azərbaycan iki prioritet tövsiyəni yerinə yetirməyib. Birincisi, ECRI hakimiyyətə müstəqil vətəndaş cəmiyyətinin inkişafı üçün şərait yaratmağı tövsiyə edib.**




## *Məhərrəm Zülfüqarlı: "Səslənən tənqidlərin heç bir əsası yoxdur"*

Bununla əlaqədar ECRI bəzi müsbət məqamları - xarici donorlar üçün qrantların qeydiyyatı prosedurunun sadələşdirilməsi ilə bağlı Prezidentin fərmanını, qrantların qeydiyyatı üçün elektron xidmətlərin inkişafını, hökumət və vətəndaş cəmiyyəti arasında dialoq başladığını qeyd edir.

Bu müsbət məqamlara baxmayaraq, ECRI hesab edir ki, hakimiyyətin QHT-lərin müstəqil fəaliyyəti üçün əlverişli şərait yaratmayan məhdudlaşdırıcı tədbirləri davam edir. Bəzi hallarda bu, həmin QHT-lərin öz işini bərpa edə bilməməsinə gətirib çıxarır. Bunu nəzərə alaraq, ECRI belə bir nəticə çıxarır ki, onun tövsiyəsi yerinə yetirilməyib. İkincisi, ECRI hakimiyyətə Avropa Şurasına daxil olarkən götürdüyü öhdəlikləri yerinə yetirməyi, Azərbaycan Konstitusiyasının 76-cı maddəsində nəzərdə tutulduğu kimi, alternativ hərbi xidmət haqqında qanunvericilik yaratmağı tövsiyə edib. Komissiya qeyd edir ki, Azərbaycan hakimiyyətinin belə bir qanunvericiliyin qəbulu üzrə heç bir təşəbbüsü olmayıb və bu tövsiyə yerinə yetirilməyib.

Qeyd edək ki, İrqçiliyə və Dözümsüzlüyə qarşı Mübarizə üzrə Avropa Komissiyası irqçiliyə, irqi, etnik, milli mənşəyə, dəri rənginə, vətəndaşlığına, dinə, dilə, cinsiyyətə, meyllərə və gender kimliyinə görə ayrıseçkiliyə, ksenofobiyaya, antisemitizmə və dözümsüzlüyə qarşı mübarizə məsələlərində ixtisaslaşan, insan hüquqlarına riayət olunmasına nəzarət edən orqandır.

Maraqlıdır, sözügedən qurumun Azərbaycan hakimiyyətinin məlum tövsiyələri yerinə yetirmədiyi barədə rəyi nə dərəcədə əsaslıdır?

*"QHT-lərin fəaliyyətinin məhdudlaşdırıldığı deyiləndə onlar əsasən xaricdən maliyyələşən..."*

**Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, Azərbaycanla bağlı səslənən tənqidlər əsassızdır:** "Səslənən tənqidlərin heç bir əsası yoxdur. Onların məqsədi Azərbaycan dövlətçiliyini zəifləməkdir. Guya hakimiyyətin QHT-lərin müstəqil fəaliyyəti üçün əlverişli şərait yaratmadığı barədə deyilənlər absurddur. Hansı əsasla onlar belə qənaətə gəliblər? Əksinə, ölkə hakimiyyəti QHT-lərin fəaliyyəti üçün hər cür şərait yaradır. QHT-lərin fəaliyyətinin məhdudlaşdırıldığı deyiləndə onlar əsasən xaricdən maliyyələşən, Azərbaycan əleyhinə təxribatla məşğul olan təşkilatları nəzərdə tuturlar. Onların çoxsaylı bank hesabını Gürcüstanda açıblar. Azərbaycanda istədikləri vaxt müəyyən maxinasiyalar edə bilmirlər. Bununla bağlı xaricdən maliyyə dəstəyi verənlər narahatdırlar. Onların məqsədi Ukrayna və digər ölkələrdə olduğu kimi, Azərbaycanda da vəziyyəti qarışdırmaqdır. Azərbaycan dövlətçiliyinin güclü olması onları narahat edir.

İkincisi, Azərbaycan müharibə vəziyyətində olduğu üçün, alternativ hərbi xidmət haqqında qanuna hələ ehtiyac yoxdur. Hər bir Azərbaycan övladı öz vətənini qorumağa və torpaqları azad etməyə borcludur".

***Vidadi ORDAHALLI***

# Pənah Hüseyn dövlət cinayəti edib?

**Elçibəy iqtidarında baş nazir postu tutmuş Pənah Hüseyn 26 may 1993-cü il tarixində keçirilən Dövlət Müdafiə Komitəsinin məxfi iclasının protokolunu yayıb. Yaxın tarixə aid olan bu mühüm sənəd sabiq baş nazirin "Facebook"dakı səhifəsində paylaşılıb. Sənəddən də göründüyü kimi, dövlətə rəhbərlik edən yüksək vəzifəli şəxslər Elçibəy iqtidarına qarşı başlayacaq və yekunda onu devirəcək 4 iyun Gəncə qiyamından cəmisi 7-8 gün əvvəl bir araya gələrək, ölkəni və onu əlaqədar edən digər məsələləri müzakirə ediblər.**



## *Fərhad Mehdiyev: "Sənədə əhəmiyyətli məxfilik qrifi vurulsaydı, onda Pənah Hüseynin onu evində saxlaması belə hüquqi məsuliyyət yarada bilərdi"*

Stenoqramdan da göründüyü kimi, iqtidarın baş naziri Pənah Hüseyn iclasda yoxdur. Sonra bunun səbəbləri aydın olur: həmin zaman kəsiyində Pənah Hüseyn Londonda, danışıqlarda olub.

DMK-nın iclasının protokolunda gündəlikdə 4 məsələnin yer aldığı qeyd edilir: 1. Qərarların icra vəziyyəti. 2. Fövqəladə vəziyyət haqqında. 3. 28 May - İstiqlal günü haqqında. 4. Mövcud hərbi vəziyyət haqqında.

Məlum sənəd ictimailəşəndən sonra geniş müzakirələrə səbəb olub. Bir sıra siyasilər və Elçibəy hakimiyyətində təmsil olunmuş şəxslər Pənah Hüseyni dövlət sirrinə aid olan məxfi sənədi yaymaqda ittiham ediblər. P.Hüseynin özü isə protokoldakı bir sıra məlumatlar və başqa məsələlərin hüquqi nöqteyi-nəzərdən məxfi sənədlərin statusuna uyğun olmadığını bildirib. Doğrudan da çox maraqlı suallar ortaya çıxır: P.Hüseyn məlum sənədi yaymaqla hansısa qanunsuzluğa yol veribmi?

Beynəlxalq hüquq üzrə p**rofessor Fərhad Mehdiyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, həmin sənədin original versiyası ilə tanış deyil:** "Bu səbəbdən də mövzuya daha əhatəli hüquqi qiymət vermək çətinləşir. Biz məlum sənədin mediada yayılan variantı, yəni məzmunu ilə tanışıq, amma sənədin orijinalını görsəydik, onun hansı dərəcədə məxfi məlumatlara aid olduğunu müəyyən edə bilərdik. Məzmun baxımından dövlət sirrinə aid olan məlumatların olduğunu iddia etmək olar. Belə sənədlərin məxfilik dərəcəsi "Dövlət sirri haqqında" Qanunun tələblərinə əsasən təsnifatlandırılır. Orada qeyd edilir ki, Azərbaycan Silahlı Qüvvələrinə aid edilən məlumatlar dövlət sirrinə aid kateqoriyadır. Bu qəbildən olan sənədlər qriflənməlidir. Yəni onlara məxfi, xüsusi məxfi və ya tam məxfi kimi adlar verilməlidir. Onların da qorunma müddəti var. Bu, qanunda öz əksini tapır. Məsələn, məxfi məlumatın mühafizə olunması müddəti 10 ildir. Elə sənədlər var ki, onların məxfilik müddəti 75 ildir. Məncə, burada cinayət tərkibi olmamalıdır. Çünki həmin məlumatların ictimailəşməsi dövlətin təhlükəsizliyi üçün hər hansı bir təhdid yaratmır. Həmin işlər üzrə müəyyən hüquqi addımlar atılıb, hətta məhkəmə hökmləri də var. Bir daha xatırladım ki, biz sənədin hansı kateqoriya üzrə qriflendiyindən xəbərsizik. Bu sənədə əhəmiyyətli məxfilik qrifi vurulsaydı, onda P.Hüseynin onu evində saxlaması belə hüquqi məsuliyyət yarada bilərdi. Çünki analoji məzmunlu sənədlər evdə yox, dövlət idarələrinin arxivində saxlanmalıdır. Hüquqda hər hansı məzmunlu sənədi dövlət sirrinə aid etmək olmur. Bir daha qeyd edirəm ki, qrifinə baxmalıyıq. Bununla ətraflı tanış olmaq istəyirsinizsə, "Dövlət sirri haqqında" Qanunun 5-ci və 13-cü maddələrinə nəzər yetirmənizi istərdim".

***Məhəmmədəli QƏRİBLİ***

# Cavad xanın bərpa olunmuş bayrağı böyük qalmaqal çıxardı...

**Azərbaycan xanlıqlarına məxsus bayraqların, eləcə də digər dövlətçilik atributlarının bərpa edilməsi, bənzərinin hazırlanması müsbət bir haldır. Lakin həmin bayraqlar hazırlanarkən onların üzərində əks olunan simvollar olduğu kimi saxlanmalıdır. Bu atributlara münasibət o qədər həssas olmalıdır ki, orada nə əskikliklərə, nə də əlavələrə yol verilməlidir. Onlar elə bərpa edilməlidir ki, orada hər hansı bir nöqsan aşkarlanmasın.**



## *"Gəncə xanlığının bayrağına əlavələrin edilməsi doğru deyil"*

Məlum olduğu kimi, Gəncə xanlığının tarixi bayrağının nüsxəsi hazırlanıb. Yayılan xəbərlərə görə, Rusiyanın Sankt-Peterburq şəhərində qədim Gəncə xanlığının tarixi bayrağının bərpa edilən nümunəsi Gəncə şəhərinə gətirilib. Bayrağın "Cavad Xan" Tarix və Mədəniyyət Fondunun sifarişi ilə hazırlandığı bildirilir.

Qeyd edilənə görə, Cavad xan dövrünə aid olan bayrağın üzərindəki ornamentlər bayrağın əslində göstərilən şəkildə hazırlanıb. Bayrağın yuxarı hissəsində müasir Gəncənin gerbinə çevrilmiş aypara simvolu, altında Azərbaycan bayrağında öz əksini tapmış 8 guşəli ulduz simvolu yer alıb. 174x127 sm ölçüdə, dördkünc formada, ipək parçadan hazırlanmış Gəncə xanlığının bayrağı "Cavad Xan" Tarix və Mədəniyyət Fondunda, o cümlədən, Gəncə Tarix Diyarşünaslıq Muzeyində saxlanacaq.

Cavad xan dövrünün bayrağında üçrəngli bayrağımızda ifadə olunan 8 guşəli ulduzun həmin dövrün mənzərəsini əks etdirmədiyini deyən tarixçilərin fikrincə, Cavad xan dövrünə məxsus bayraqda müasir Azərbaycan dövlətinin üçrəngli bayrağında əks olunan 8 guşəli ulduzun əks olunması tarixin təhrif edilməsidir.

Cavad xanın bayrağının bərpası zamanı 8 guşəli ulduzdan istifadə edilməsinin bayrağa müasir elementlər gətirilməsi anlamına gəldiyini deyən tarixçilər hesab edirlər ki, o bayraq olduğu kimi bərpa edilməli idi.

**Tarix üzrə fəlsəfə doktoru, tanınmış tarixçi-alim Faiq Ələkbərli "Bakı-Xəbər"ə bildirdi ki, xanlıqlar dövrünə aid bayraqlar bərpa edilərkən bütün hallarda diqqətli olmaq lazımdır:** "Hesab edirəm ki, bu, məntiqli deyil. Yəni Gəncə xanlığının bayrağına əlavələrin edilməsi doğru deyil. Ola bilsin ki, bunu edənlər Gəncə xanlığının bayrağı ilə Azərbaycan bayrağı arasında sintez etmək niyyətində olublar. Ancaq, bütün hallarda, hər bir bayraq olduğu kimi verilməlidir. Fikrimcə, bayraq məsələsinə həssas yanaşılmalıdır. Bunu edənlər nə etdiklərinin məsuliyyətini başa düşməlidirlər.

Bəzən yaxşı niyyət mənfi nəticələr verir. Doğrudur, Gəncə xanlığının bayrağı da bizim xalqımızın simvoludur. Ancaq artıq o, tarixə çevrilib, bu gün isə üçrəngli bayrağımız bizi birləşdirən tək bayraqdır. Ona görə də tarixi obyektivliyi unutmaq olmaz".

**"Cavad Xan" Tarix və Mədəniyyət Fondunun vitse-prezidenti Müzadil Zauroğlu ittihamları qəbul etməyərək bildirdi ki, ola bilsin, yayılan xəbər düzgün anlaşılmayıb.** "Ola bilsin orada bir az anlaşılmazlıq olub. O bayraq tam olaraq tarixi görkəmində bərpa edlib. Orijinal bayraq necə olubsa, bərpa edilən bayraq da o cürdür. O bayrağa bərpa zamanı heç bir yenilik gətirilməyib. Sadəcə olaraq, Gəncənin indiki gerbi həmin bayraqdan götürülüb. O bayraqdan simvol götürülüb və müasir Gəncənin gerbinə çevrilib. 8 guşəli ulduzun bayraqda əks olunmasına gəlincə, 1918-ci ildə qəbul edilən bayrağımızda da 8 güşəli ulduz əks olunub və elə o zamandan da bundan istifadə edilir. Yəni o da yeni bir məsələ deyil. Onu da deyim ki, Gəncə xanlığının 8 bayrağı olub və səhv etmirəmsə onların 2-də 8 guşəli ulduz yer alıb. Yəni burada heç bir tarixi təhrifdən söhbət gedə bilməz" - deyə M.Zauroğlu qeyd etdi.

## *Faiq Ələkbərli: "Bəzən yaxşı niyyət mənfi nəticələr verir"*

## *Müzadil Zauroğlu: "Gəncə xanlığının 8 bayrağı olub və səhv etmirəmsə onların 2-də 8 guşəli ulduz yer alıb"*

Gəncə xanlığının bayraqlarından birini nümunə göstərən müsahibimiz vurğuladı ki, 174x127 sm ölçüdə, dördkünc formada ipək parçadan olan Gəncə xanlığının bu bayrağı iki yaşıl və bir moruğu rəngli şaquli zolaqdan ibarətdir. O qeyd etdi ki, zolaqlar üzərində qızılı və al-qırmızı rəngdə yazılar yazılıb və naxışlar verilib.

Bayrağın yuxarı hissəsində günəş formasında qırmızı dairənin içində qızılı hərflərlə yazılmış "ALLAH" sözü oxunur. Bayrağın orta hissəsində qırmızı naxışların içində bir neçə dəfə qızıl hərflərlə "La İlahə İllələh, Mühəmmədən Rəsullulah" yazısı toxunub. "Allahdan başqa Allah yoxdur, Mühəmməd Onun Rəsuludur".

Bayrağın sağ aşağı hissəsində gözəl xəttatlıq üslubu və qızıl hərflərlə Qurani-Kərimdən ən-Nisa surəsi, ayə 95 həkk olunub.

"Allah yolunda öz malları və canları ilə cihad edənlər üzürlülər istisna olmaqla evlərində əyləşən möminlərlə eyni olmazlar.

Allah malları və canları ilə vuruşanları (evlərində) əyləşənlərdən dərəcə etibarilə daha üstün tutdu. Allah (onların) hamısına ən gözəl nemətlər vəd etmişdir.

Allah mücahidləri (evdə) oturanlardan daha böyük bir mükafatlarla üstün etmişdir (imtiyaz vermişdir)".

"Bayrağın üstündə həkk olunan və savaşa, cihada səsləyən bu ayə Gəncəmizin dillər əzbəri olmuş əyilməzliyinin və mübarizliyinin daha bir bariz nümunəsi və izahıdır!

Bayrağın üzərində, onun yuxarı hissəsində müasir Gəncənin gerbinə çevrilmiş orijinal aypara simvolunu görə bilərik. Onun altında Azərbaycan bayrağında öz əksini tapmış 8 güşəli ulduz simvolu yer alıb. Qeyd edim ki, ruslarının məruzəsinə əsasən, 3 yanvar 1804-cü il tarixində Gəncə qalasının işğalı zamanı hərbi qənimət kimi 8 bayraq və bir ələmli ştandart ələ keçirilmişdi. Həmin məruzəyə əsasən, bayraqların birinin üzərində Səfəvi və sonrakı Azərbaycan türk dövlətlərinin simvolu olan "Şir və Günəş" əks olunub" - deyən M.Zauroğlu bu bayrağın xüsusi önəm daşıdığını dedi.

***İradə SARIYEVA***

**Məlum olduğu kimi, Ermənistan parlamentində yaradılan xüsusi istintaq komissiyası 2016-cı ildə baş vermiş dördgünlük aprel döyüşlərini təftiş edəcək.**



# Aprel məğlubiyyətini araşdıran "Paşinyan komissiyası" özünü "daşa dirədi" - məğlubiyyətin rəsmi etirafı...

## *Arzuxan Əlizadə: "Bu, Ermənistanda məğlubiyyətin rəsmən etiraf edilməsi anlamına gəlir"*

Komissiya Silahlı Qüvvələrin təchizatı, arxa qüvvələrin təchiz olunması və döyüş hazırlığı, döyüş növbətçiliyi qaydalarına əməl edilməsi, qoşunların tamamlanması, kəşfiyyat xidməti ilə bağlı məsələlərin araşdırılması ilə məşğul olacaq. Komissiyada hakim "Mənim addımım" fraksiyasının 7, müxalif "Ziyalı Ermənistan" və "Firavan Ermənistan" fraksiyalarının hər birindən 2 millət vəkili təmsil olunur.

Baş nazir Nikol Paşinyan bildirib ki, komissiyanı yaratmaq kiminsə cəzalandırmaq məqsədi daşımır: "Əsas odur ki, bənzər bir vəziyyət təkrarlanmasın".

Komissiya fəaliyyətə başlasa da, ortaya bir sıra suallar çıxır. Belə çıxır ki, aprel döyüşlərinin ermənilər üçün məğlubiyyətlə nəticələndiyi rəsmən etiraf olunur. Ermənilər zaman-zaman bəyan ediblər ki, onlar ciddi ərazi itkisinə məruz qalmayıb, itirilən mövqelər strateji əhəmiyyət kəsb etmir. Ermənistan cəmiyyətində isə belə suallar yaranıb ki, belədirsə, o zaman Talış kəndində niyə əhali məskunlaşa bilmir? Hansı ki, sözügedən kənd ətrafında yüksəkliklər Azərbaycan Ordusunun nəzarətində olduğu üçün orada yaşayış yoxdur. Komissiya tərəfindən bunların ortaya qoyulması məğlubiyyətin rəsmən etiraf edilməsi olacaq. Digər tərəfdən, aprel döyüşləri barədə ortaya çıxan sualların kimə ünvanlanacağı ilə bağlı qeyri-müəyyənlik var. Həmin dövrdə prezident Serj Sarkisyan idi. Sarkisyan o zaman "Blunberq" agentliyinə açıqlamasında demişdi ki, itirilən mövqelər strateji əhəmiyyətli deyil. Belə çıxır ki, komissiya ilk növbədə Sarkisyanı sorğu-sual etməli və həmçinin, ona qarşı cinayət işi açılmalıdır.

*"Qarabağ klanı" bundan Paşinyana qarşı bir siyasi alət kimi istifadə etməyə çalışacaq"*

Göründüyü kimi, Paşinyan bu addımı atmaqla çox paradoksal vəziyyətin yaranmasına şərait yaradıb. Nəticədə, bir növ, özü çıxılmaz vəziyyətə düşüb.

**Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, Paşinyan aprel döyüşləri ilə bağlı komissiyanı öz rəqiblərini sıradan çıxarmaq məqsədilə yaradıb:** "Məqsəd ona müxalif olan "Qarabağ klanı"nı zəiflətməkdir. Bu minvalla onları sıradan çıxarıb siyasi səhnədən uzaqlaşdırmaq istəyir. Ancaq bunun əksinə olaraq, həmin qüvvələrin bundan Paşinyana qarşı istifadə edəcəkləri gözlənir. Çünki Ermənistan cəmiyyətində aprel döyüşləri ilə bağlı parlament komissiyasının yaradılması birmənalı qarşılanmır. Bəziləri hesab edirlər ki, bu, orduda sarsıntılara və ruh düşkünlüyünə səbəb ola bilər.

Çünki bu, Ermənistanda məğlubiyyətin rəsmən etiraf edilməsi anlamına gəlir. Həm də belə çıxır ki, eks-prezident Serj Sarkisyan məsuliyyətə cəlb edilməlidir. Mənə elə gəlir ki, "Qarabağ klanı" bundan Paşinyana qarşı bir siyasi alət kimi istifadə etməyə çalışacaq. Onlar bəyan edəcəklər ki, Paşinyan məğlubiyyət abhavası yaradır. Bu minvalla, siyasi etirazları qızışdırıb Paşinyanı devirməyə çalışacaqlar".

***Vidadi ORDAHALLI***

**Zaman-zaman utopik ideyalarla, avantürist açıqlamalarla gündəmdə qalmağa çalışan Ermənistan hökuməti təmsilçiləri bununla erməni xalqını aldatmaq məqsədi güdürlər. Çünki bu ölkəyə rəhbərlik edənlər də, ermənilərin dini liderləri və ideoloqları da hər zaman qeyri-real açıqlamalar verməklə erməni xalqını yanlış istiqamətə yönəldiblər.**



# Ermənistan "XXI əsr Türk əsri" ideyasına guya alternativ çıxardı - "XXI əsr erməni əsri"...

## *Niyaməddin Orduxanlı: "Rəzil vəziyyətə salınan ermənilərin XXİ əsrdə hansısa yüksəlişə nail olmaları üçün heç bir real göstərici, əsas yoxdur"*

Erməni mətbuatının yazdığına görə, Ermənistanın kurort şəhəri olan (?) Dilicanda "Summit of Minds" adlı beynəlxalq tədbir keçirilir. Sözügedən sammitdə Ermənistan Prezidenti Armen Sarkisyanın və Baş nazir Nikol Paşinyanın da iştirak etdiyi bildirilir. Qeyd edilənə görə, sözügedən tədbir adətən Fransada keçirilsə də, bu dəfə ənənədən kənara çıxaraq Ermənistanda düzənlənib. Ermənistan mətbuatının yaydığı məlumata görə, sammitdə bir sıra xarici ölkələrin tanınmış siyasi xadimləri, yüksək texnologiyalar üzrə alimlər, iş adamları da iştirak edirlər.

Toplantıda çıxış edən Ermənistanın Baş naziri N.Paşinyan, həmişə olduğu kimi, bu dəfə də cəfəng fikirlərlə diqqəti çəkib. XXI əsrin fikir və inkişaf əsri olduğunu qeyd edən Paşinyan "ona görə də biz inanırıq ki, XXI əsr də Ermənistan xalqının əsridir. Bu əsrdə erməni xalqının intibahı baş verəcək. Ermənistanın açıq dənizə çıxışı, nefti yoxdur və bu da Ermənistanın inkişafdan geri qalmağı demək deyil, artıq fikir, düşüncə, intellekt əsridir" - deyə vurğulayan Paşinyan, həmçinin, bildirib ki, yüksək texnologiyaları inkiaf etdirmək istiqamətində işlər görülür.

Ermənistanın Baş nazirinin heç bir tarixi reallığa söykənməyən və gerçəkliklə uzlaşmayan fikirləri yalnız ermənilər üçün ümiddoğurucu görsənə bilər, dünya üçün isə bu, köhnə və boyat bir nağıldır.

XXI əsr türk əsridir və bunu yalnız biz deyil, bütün dünya deyir. XXI əsrin türk əsri olması dünyanın ən möhtəşəm tribunalarından səsləndirilib.

**Paşinyanın XXI əsri "erməni əsri" kimi qələmə verməsinin heç bir əsası olmadığını deyən Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini, politoloq Niyaməddin Orduxanlının sözlərinə görə, erməni xalqının etimadını itirən Paşinyan bu açıqlama ilə gündəmdə qalmaq istəyir.** O qeyd etdi ki, XXI əsrin "erməni əsri" olması üçün heç bir real göstərici yoxdur. "Bu gün "erməni xəstəliyi" bütün dünyaya məlumdur. Paşinyan və erməni xalqı cılız, mənasız, süni bir ideologiyanın təbliğatçısına çevriliblər. Ermənistanın siyasi rejimi bir ovuc xalqı olan ermənilərin cahilliyindən istifadə edərək bu cür həqiqətə uyğun olmayan fikirlər səsləndirir. "Dənizdən-dənizə böyük Ermənistan" utopiyası ilə yaşayan erməni ideoloqları bu gün də cəfəng "XXI əsr erməni əsri olacaq" ideyasını ortaya atıblar. Rəzil vəziyyətə salınan ermənilərin XXI əsrdə hansısa yüksəlişə nail olmaları üçün heç bir real göstərici, əsas yoxdur. "XXI əsrin erməni əsri" olacağı fikri çox gülünc və absurddur. Bir sözlə, başqa dövlətlərin, xalqların verdiyi ianələrlə, onların süfrəsinin qırıntıları ilə yaşayan ermənilərin Baş naziri Paşinyan heç olmasa öz dediklərinə inanırmı? Onlar hansı potensialla, hansı imkanlarla buna nail ola bilərlər? İri dövlətlərin əlində alət olan, konkret Rusiyanın forpostuna çevrilən Ermənistan rəhbərliyinin belə bir bəyanat verməsi dünyada gülüşlə, istehza ilə qarşılanır. Çünki dünya Ermənistanı Rusiyanın bir əyaləti kimi tanıyır. Ermənistan Rusiyanın subyektlərindən biridir. Hətta Çeçenistanın rəhbəri Ramzan Kadırov Rusiya dövlətinin yanında Ermənistanın siyasi rəhbərliyindən daha müstəqildir, sözü keçərlidir" - deyə N.Orduxanlı bildirdi.

*"Onlar hansı potensialla, hansı imkanlarla buna nail ola bilərlər?"*

XXI əsrin türk əsri olduğunu deyən N.Orduxanlının sözlərinə görə, Ermənistanın Baş nazirinin "XXI əsrin Ermənistan xalqının əsri" olacağını deməsi uğursuz bir addımdır. Dünyada milyonlarla türkün yaşadığını qeyd edən N.Orduxanlı hesab edir ki, bir ovuc erməni yalnız çirkin əməllərlə, saxtakarlıqla "XXI əsrin qəhrəmanı" ola bilər.

***İradə SARIYEVA***

# Kəskinləşən ABŞ-Çin ticarət müharibəsindən salamat çıxan olmayacaq - Azərbaycandan başqa...

**Dünya iqtisadiyyatında hələ də ciddi narahatlıq predmetinə çevrilən başlıca məqamlardan biri getdikcə kəskinləşən ticarət müharibəsidir. Bunun bütövlükdə dünya ölkələrinə təsiri artıq qaçılmaz amil sayılır. Amma ekspertlər bir məqamı da xüsusi olaraq vurğulayır ki, ölkələrə ticarət savaşının, xüsusən də ABŞ və Çinin bu xüsusda iqtisadi çəkişməsinin təsirləri də müxtəlif olacaq.**

Məsələn, artıq indidən bəllidir ki, MDB ölkələri sırasında bu ticarət savaşının Azərbaycana hansısa ciddi təsiri olmayacaq. Amma digər MDB ölkələri üçün vəziyyət fərqlidir.

Hələlik isə bir çox ölkə və təşkilat ticarət savaşının dayanmasına dair çağırış etsə də, vəziyyət tamam fərqli məcrada inkişaf edir. Beynəlxalq Valyuta Fondunun icraçı direktoru Kristin Laqard bu xüsusda bildirir ki, ticarət müharibəsi dünya iqtisadiyyatının inkişafına əsas təhlükədir. Bu, eyni zamanda, bir sıra digər risqlər - çox aşağı faiz dərəcələri və inkişaf etmiş iqtisadiyyatların borc səviyyəsinin artması deməkdir. Onun sözlərinə görə, təkcə ABŞ-la Çinin qarşıdurması 2020-ci ildə dünya ümumi daxili məhsulunun 0,5 faiz həcmdə azalmasına gətirib çıxara bilər. Rəqəmlə ifadə edilsə, bu, 455 milyard dollar deməkdir. Laqardın fikrincə, qlobal iqtisadiyyatdakı risqləri azaltmaq üçün ilk növbədə ticarətdəki mövcud gərginliyi aradan qaldırmaq lazımdır. O, tətbiq edilən rüsumların ləğvini və yenilərinin tətbiq edilməməsini, eləcə də beynəlxalq ticarət sisteminin modernləşdirilməsini nəzərdə tutduğunu deyib. BVF-nin icraçı direktoru qlobal iqtisadiyyatdakı qeyri-sabitliyin aradan qaldırılması üçün dövlətlərin birgə işləməsini vacib hesab edir.

Hazırda iqtisadi müstəvidə əsas təhlükə kimi ABŞ və Çin arasında çəkişmə göstərilir. Düzdür, Birləşmiş Ştatların prezidenti Donald Tramp bəyan edib ki, ABŞ Çinlə ticarət sazişi imzalamağa mütləq nail olacaq. O bildirib ki, artıq Çin saziş bağlamaq istəyir:"Mən saziş imzalamaq istərdim. Biz razılıq əldə etmişdik, amma Çin tərəfi sazişin şərtlərini dəyişdirməyə cəhd etdi. Lakin onlar bunu edə bilməzlər". Qeyd edək ki, mayın ortalarında ticarət üzrə ABŞ-Çin danışıqlarının sonuncu mərhələsi nəticəsiz qalıb. ABŞ dəyəri 200 milyard dollar olan Çin mallarının idxalına gömrük rüsumunu 10 faizdən 25 faizədək artırıb. Bundan sonra Tramp Çindən 300 milyard dollar qiymətləndirilən idxala görə də rüsumları artırmağı tapşırıb.



Buna cavab olaraq, Çin Maliyyə Nazirliyi iyunun 1-dən dəyəri 60 milyard dollar olan ABŞ mallarına rüsumun artırıldığını elan edib. Xatırladaq ki, ABŞ-ın əvvəlki prezidentlərinin qəbul etdiyi bir sıra qərarlardan sonra indiki dövlət başçısı Donald Trampın səsləndirdiyi bəyanatlar və ölkənin ötən ilin yanvar ayında Çinlə münasibətlərdə balansı qoruyan Sakit Okean Tərəfdaşlıq Müqaviləsindən çıxması sonda iki ölkə arasında ticarət müharibəsinin başlanmasına səbəb oldu. Bu baxımdan, ABŞ prezidentinin keçən ilin mart ayında polad və alüminium idxalına vergi tətbiq edilməsinə dair ilk bəyanatı çox önəmlidir. Bununla Tramp təkcə Çini və Avropa İttifaqı (Aİ) ölkələrini deyil, həm də qonşu Kanada və Meksikanı, eləcə də digər Latın Amerikası ölkələrini hədələdi. Son bəyanatlara gəldikdə isə, onların artıq iqtisadi nəticələri var. Söhbət, yuxarıda qeyd olunduğu kimi, dünya iqtisadiyyatına yaranan təhdiddən gedir.

Qeyd edək ki, Çinin ABŞ-a ixrac etdiyi məhsulların dəyəri ABŞ-dan idxal etdiyi məhsulların dəyərindən 4 dəfə azdır. Beləliklə, hazırda ABŞ-ın xarici ticarət dövriyyəsində 800 milyard dollarlıq mənfi saldo var ki, bunun da 375 milyard dolları Çinlə idxal-ixrac əməliyyatlarının hesabına formalaşıb. ABŞ Çin istehsalı olan 1 300 adda məhsulun idxalına 10% gömrük rüsumu tətbiq etməklə xarici ticarət balansındakı kəsiri aradan qaldırmağa çalışır. Amma Çin də "yerində saymır". Bir neçə gün bundan əvvəl Şərqi Asiya ölkəsi bəyan edib ki, ABŞ-dan idxal olunan 60 milyard dollarlıq məhsula ilk öncə 5%, daha sonra isə 10% vergi tətbiq ediləcək. Bununla da tərəflər arasında gərginlik daha da artıb və ticarət müharibəsi 2-ci mərhələyə qədəm qoyub. Belə vəziyyət digər dünya ölkələrinə də ciddi surətdə təsir göstərir. Məsələn, Dünya Bankı bu durumda bir çox ölkələrdə iqtisadi geriləmənin olacağını bildirir. MDB-yə gəlincə, burada ən böyük iqtisadiyyata malik Rusiya prosesdən ən çox təsirlənən ölkələr sırasında ilk yerdə durur. Bildirilir ki, dünya ticarətində vəziyyətin pisləşməsi Rusiya iqtisadiyyatını geri salacaq. Çinlə ticarət əlaqələrinə malik Orta Asiya ölkələri də eyni problemlərlə üzləşəcək. Qafqazda Ermənistan və Gürcüstan dünya iqtisadiyyatında baş verənlərə çox həssas olduğundan, onların da prosesdən ciddi zərər görməsi gözlənilir. Ticarət müharibəsi davam edəcəyi təqdirdə, Azərbaycana idxal edilən məhsulların da qiymətində artımlar müşahidə edilə bilər. Amma qlobal ticarət müharibəsi neftin dünya bazarında qiymət artımına gətirib çıxararsa, bu halda neft ölkəsi olan Azərbaycanda gəlirlərin çoxalması üçün yaxşı zəmin formalaşar. Yəni baş verənlər strateji və enerji məhsullarının qiymətinin də bahalaşmasına gətirəcəyi təqdirdə, nəticə etibarı ilə ölkəmiz qlobal ticarət müharibəsindən uğurla çıxa bilər, öz gəlirlərini artırmaq imkanı qazanar. Beləliklə, bütövlükdə qlobal ticarət müharibəsinin Azərbayan üçün təhdid istiqamətində ciddi təsirləri olmayacaq.

**Hətta enerji məhsullarının qiyməti qalxmasa belə, Azərbaycan yaranmış vəziyyətdə qeyri-neft məhsullarının artan ixracı hesabına yenə ticarət müharibəsindən ən az təsirlənən ölkələrdən biri olacaq. Xatırladaq ki, bundan əvvəlki ticarət və valyuta savaşları da Azərbaycana hansısa ciddi təsir göstərməmişdi.**

***Tahir TAĞIYEV***

## Şərqi Aralıq dənizində gərginlik... Yunanların "türkləri həbs edin" əmrinə Türkiyədən sərt reaksiya...

**Cənub Kipr Yunan rəhbərliyi may ayından bəri Kipr adası yaxınlığında olan "Fateh" qazma gəmisində işləyənlər və Türkiyə Petrolleri Anonim Ortaqlığı (TPAO) ilə əməkdaşlıq edən şirkətlərin səlahiyyətliləri haqqında həbs qərarı çıxarıb.**



Baki-xeber.com Türkiyə mediasına istinadən xəbər verir ki, ümumilikdə 25 nəfər haqda həbs qərarı çıxaran Yunan Kipri onların dəniz sərhədləri daxilində icazəsiz qazma işləri apardıqlarını iddia edir. "Fateh" qazma gəmisində Böyük Britaniya və Türkiyədən personalın olduğu, Türkiyənin ikisi Amerika, biri Xorvatiyadan olmaqla, qazma işlərində 3 mütəxəssis şirkətlə əməkdaşlıq etdiyi və buradakı işçilər, şirkət rəsmiləri haqqında cinayət işi qaldırıldığı bildirilir.

Məsələ ilə bağlı açıqlama verən Türkiyə Xarici İşlər Nazirliyinin sözçüsü Hamid Aksoy Cənubi Kipr Yunan rəhbərliyinin "Fateh" qazma gəmisinin işçiləri və TPAO ilə əməkdaşlıq edən xarici şirkətlərin rəhbərləri haqqında həbs qərarı verdiyini mediadan yaxından izlədiklərini deyib. "Kipr türklərini yox sayaraq və haqlarını qəsb edən Yunan Kiprinin bu həddini aşan qərarı doğrudursa, bizim üçün heç bir hökmü və etibarlılığı olmayacaq. Buna cəhd edəcəyi təqdirdə lazım olan cavabı verəcəyimizdən də kimsənin şübhəsi olmamalıdır. Yunan Kiprinin özünə aid olduğunu iddia etdiyi və beynəlxalq hüquqla məhdudlaşdırılmamış bir dəniz sahəsi üçün bu şəkildə bir qərar verməsi beynəlxalq hüquqa ziddir. Buna görə də biz əlaqədar təşkilatlarımızla birlikdə gərəkən hüquqi əks prosesi başladacağıq.

Yunan Kiprinin bu cür yersiz üsullarla öz ərazimizdə apardığımız işləri dayandırma səyləri heç bir nəticə verməyəcək.

Türkiyə həm öz ərazi haqlarını, həm də adanın bərabər ortağı olan Kipr türklərinin haqlarını qorumaq üçün neft və təbii qaz axtarış-qazma işlərinə planlaşdırıldığı kimi davam edəcək" - XİN rəsmisi deyib.

# 2020-ci il prezident seçkiləri və Ermənistanla separatçı rejimin silahlı qarşıdurması...

**"Qarabağ klanı" ilə mövcud Ermənistan hakimiyyəti arasında münasibətlər getdikcə daha gərgin mərhələyə qədəm qoymaqdadır. Erməni mediasının və ekspertlərinin səsləndirdiyi fikirlərdən belə bəlli olur ki, gərginliyin əsas səbəbi Ermənistanın baş naziri Nikol Paşinyanın işğal edilmiş ərazilərdə yaradılan separatçı rejimin başına öz adamını gətirmək niyyətidir.**

Amma "Qarabağ klanı" əsas dayağı saydığı rejimin rəhbərliyində öz adamlarını saxlamaqda israrlıdır. Məhz bütün bunlar "Qarabağ klanı" ilə Ermənistan hakimiyyəti arasında yaranan ixtilafı daha da dərinləşdirir.

Erməni politoloq Yervand Bozoyan məsələ ilə bağlı qeyd edib ki, bir çoxları Paşinyanın adamı kimi Dağlıq Qarabağın keçmiş "baş naziri" Araik Arutyunyanı görür. Lakin onun fəaliyyətini və biznes-əlaqələrini nəzərə alanda Qarabağda mənfi reytinqi yüksəkdir: "Birbaşa tərəfdaşı olmayan Paşinyan Arutyunyan üçün meydanı təmizləməyə çalışır, onun potensial rəqiblərini hədəfə götürür". "Qarabağ klanı"nın təmsilçiləri Aleksey Balayan və Roland Aydinyanın həbsi də bunun təsdiqi sayılır. Bu şəxslər Araik Arutyunyana qarşı olanlar sırasında yer alır. Qeyd edək ki, Aleksey Balayan Qarabağda erməni separatçılarının yaratdığı hərbi dəstələrin əsas təsisçisi Vladimir Balayanın oğludur. Roland Aydinyan isə işğal edilmiş Kəlbəcər rayonunun keçmiş "rəhbəri"dir. Onların həbsinin də elə Araik Arutyunyanın sifarişi ilə gerçəkləşdirildiyi iddia edilir. Yervand Bozoyanın fikrincə, ciddi təhlükə var ki, proses bu cür davam edib dərinləşsə, olduqca acınacaqlı nəticələrə gətirib çıxara bilər. Onun sözlərinə görə, İrəvanla Xankəndi arasında gərgin münasibətlər Qarabağda qarşıdakı "prezident seçkiləri" ilə əlaqədar olaraq daha da dərinləşəcək: "Təbii ki, Paşinyan hakimiyyətə gələndən sonra güclənməyə çalışır. Seçkilərdən sonra o, parlamentdə çoxluğu əldə etdi. İndi isə məhkəmə hakimiyyəti üzərində nəzarəti ələ keçirməyə çalışır. Qarabağ Ermənistanla sıx bağlıdır və Paşinyan üçün qəbuledilməzdir ki, orada onun "tərəfdaşı" olmayan kimsə hakimiyyət başında olsun". Bozoyanın fikrincə, Dağlıq Qarabağdakı rejimlə Ermənistan hakimiyyəti arasında gərgin münasibətlərin nəyə aparıb çıxaracağını təxmin etmək çətindir. Çünki Qarabağda bir-biri ilə mübarizə aparan siyasi qüvvələr Paşinyanla "üzvi bağlara" malik deyil. Rusiyanın "regnum.ru" portalı da bu gedişlə separatçılarla İrəvan arasında vəziyyətin daha gərgin mərhələyə qədəm qoyacağını proqnozlaşdırır: "Ermənistanın hamının və hər şeyin külünü göyə sovuran informasiya portalı "Lragir" siyasi uzaqgörənliyi ilə hamını təəccübləndirməyə başlayıb. "DQR" uzun illərdən bəri ilk dəfə Birinci Ermənistan Respublikası Günü ilə bağlı tədbirlərə qatılmayanda, "DQR prezidenti" Bako Saakyan isə yalnız yazılı təbrik göndərəndə portal redaksiya şərhini yerləşdirib: "Görürsünüz, Qarabağ olmayanda necə kədərli olur?".



Ermənistanda və ondan qıraqda çoxları bunu Dağlıq Qarabağın ilk prezidenti və Ermənistanın keçmiş prezidenti Robert Köçəryan həbsdən azad ediləndən sonra baş nazir Nikol Paşinyanın Xankəndinin ünvanına açıq deyilmiş "sui-qəsd hazırlığı" ittihamlarına reaksiya kimi izah edir.

"Paşinyan bu məsələdə doğrudan da öyünə bilər, - Ermənistan nəşrlərindən biri yazıb. - O, faktiki olaraq, özünün şəxsi antipatiya və siyasi hesablarını dövlət maraqlarından üstün tutaraq, bunu hamının gözü qabağında edib. Hakimiyyətin dəstəklədiyi kütlənin ötən ayın sonlarında Bako Saakyanın ünvanına səsləndirdiyi hədə isə Paşinyanı ictimaiyyətin gözündən salıb: erməniçiliyin birliyi üçün rəmzi tarix sayılan 28 mayın imici Paşinyanın "yüngül əli" ilə sarsılıb". Göstərilən dəyərləndirmələr, heç olmasa ona görə aktuallıq qazanır ki, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində Paşinyana ümid bağlayırdı. İndi bu problem Ermənistandakı daxili-siyasi durum fonunda hələlik ikinci plana keçir: biz yekunda siyasi baxımdan zəifləyən Paşinyanı və İrəvanda müəyyən güclərin 2020-ci ilə nəzərdə tutulan "prezident seçkilərinə" buraxmaq istəmədikləri, "Lragir"in hesab etdiyi kimi, "axsaq ördək" rolunda çıxış edən "DQR prezidenti" Saakyanı görürük. Eyni zamanda, Saakyanın qarşıdakı seçki silsiləsindən imtinası İrəvanda bütünlükdə "Qarabağ klanı"nın birmənalı məğlubiyyəti kimi qəbul edilir. Amma klan buna qarşı çıxır və öz mövqeyini qorumağa çalışır. Elə bu da onlar arasında gərginliyi daha təhlükəli mərhələyə daxil edir". Belə vəziyyətdə "Sasna Tsrer" Partiyasının rəhbəri Jirayr Səfilyan bildirib ki, Paşinyan "Qarabağ klanı" və Rusiya faktorundan çəkinməyərək qəti şəkildə Qarabağda istəyinə nail olmalıdır. O bu xüsusda vurğulayır ki, "Qarabağ klanı"na "beşinci kolon" da yardım edir: "Ermənistanda olan "beşinci kolon"a Rusiya rəhbərlik edir. İndi bu "beşinci kolon" Qarabağda yerləşdirilib. Biz son aylar ərzində Kremldən fərlqi komissarların, emissarların yerlərdə lazımi fəaliyyətin yoxlanması məqsədilə gəldiyinə şahid oluruq. Onların missiyaları uğursuzluğa düçar olub. Qarabağın abxaziyalaşdırılması ilə bağlı bütün cəhdlər uğursuzluqla nəticələndi".

Nikol Paşinyanı tərifləyən Səfilyan məhz onun sayəsində Kremlin Karen Karapetyanı hakimiyyətə gətirmək planının fiaskoya məruz qaldığını deyib. O, Kremlin Ermənistanda hakimiyyətin xalq nümayəndəsinə keçməsindən qorxduğunu bildirib:"Beşinci kolon" çalışır ki, hakimiyyət uğursuzluğa düçar olsun. Onlar Nikol Paşinyandan qorxmurlar. Onlar dəyişikliyin xalqın öz iradəsini ifadə etməsi nəticəsində meydana gəlməsindən və bu rəhbər uğur qazanacağı təqdirdə, inqilabın Rusiyaya çatmasından qorxurlar. Onların qarşısındakı hədəf bunu neytrallaşdırmaqdır. "Beşinci kolon"un qısamüddətli hədəfi Ermənistan və Qarabağda idarəolunan xaos yaratmaqdır".

**O qeyd edib ki, İrəvan mümkün qədər Qarabağa müdaxilə etməli və və burada Sarkisyan rejiminin qalıqlarını təmizləməlidir. Hesab edilir ki, yaxın tezlikdə hadisələrin məhz Səfilyanın dediyi kimi cərəyan etməsi istisna deyil. Bu isə artıq separatçı rejimlə İrəvan arasında silahlı qarşıdurma deməkdir.**

*Nahid SALAYEV*

# İslandiyada Türkiyə futbol yığmasına böyük hörmətsizlik edildi və Çavuşoğlu ultimatum verdi

**2020-ci il Avropa Çempionatının seçmə mərhələsinin "H" Qrupunda mübarizə aparan Türkiyə millisi iyunun 11-də İslandiya ilə baş tutacaq qarşılaşma öncəsi bu ölkədə haqsızlıqla üzləşib.**



Baki-xeber.com xəbər verir ki, Türkiyə millisi İslandiyanın "Keflavik" hava limanına enən kimi böyük hörmətsizliklə qarşılaşıb.

Belə ki, Türkiyə milli komandasının bütün üzvləri 2 saat pasport yoxlamasından keçirilib. Bundan əlavə, futbolçuların şəxsi əşyaları da detallı yoxlamadan keçirilib.

Bundan başqa, Əmrə Bələzoğlu açıqlama verərkən hələlik turist olduğu iddia edilən bir nəfər ona mikrofon deyil fırça uzadıb. Daha sonra isə oradan uzaqlaşıb.

Türkiyə isə futbolçulara qarşı bu cür saygısız hərəkətlərə sərt reaksiya verib. Xarici işlər naziri Mövlud Çavuşoğlu bunun cavabsız qalmayacağını deyib.

"Futbol üzrə milli komandamızın 2020-ci il Avropa Çempionatı seçmələri çərçivəsində İslandiya ilə oynayacağı matç üçün bu ölkəyə səfəri zamanı hava limanında məruz qaldığı rəftar həm diplomatik tətbiqlər baxımından, həm də insanlıq baxımından qəbul edilə bilməz. Millətimiz əmin olsun ki, buna lazımlı cavab veriləcək" - deyə Çavuşoğlu vurğulayıb.

Bu arada, Türkiyə İslandiyaya etiraz notası göndərib. Bunu da M.Çavuşoğlu deyib. Onun sözlərinə görə, bu addıma Reykyavik hava limanı əməkdaşlarının Türkiyə milli komandasının üzvlərinə göstərdiyi münasibət səbəb olub. M.Çavuşoğlu bildirib ki, aeroportda baş verənlər diplomatik normaların kobud surətdə pozulmasıdır.

# "Azərbaycan hərbçilərini öldürüb danışıqları pozana mükafat" - Paşinyanla hərbi nazirin formal ziddiyyəti Ermənistanı ifşa etdi...

**Ermənistan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan sülh danışıqlarına bütün gücü ilə mane olmağa çalışır. Hətta bu istiqamətdə açıq təxribatlar belə törətməkdən çəkinmir. ATƏT-in Minsk Qrupu həmsədrlərinin respublikamızda səfərdə olduğu bir vaxtda, mayın 30-da səhər saatlarında cəbhənin Ağdam rayonu istiqamətində düşmən tərəfindən açılan snayper atəşindən Azərbaycan Ordusunun hərbi qulluqçusu, mayor Omarov Aqil Akif oğlu şəhid oldu.**




Bunun ardınca iyunun 9-da cəbhənin Tərtər rayonu istiqamətində düşmən tərəfindən açılan atəş nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu Xəlilov Elşən Vüqar oğlu şəhid olub. Bu hadisənin də danışıqlar prosesinə yönəlik açıq təxribat olduğu aydın şəkildə özünü büruzə verir.

İkinci hərbçimizin öldürülməsi XİN rəhbərlərinin görüşü ərəfəsinə təsadüf edir. Bununla da Ermənistan tərəfi açıq şəkildə sübut edir ki, atəşkəsin qorunmasında, danışıqların normal məcrada davam etdirilməsində maraqlı deyil. Maraqlıdır ki, Sankt-Peterburqda keçirilən iqtisadi forumda azərbaycanlı jurnalistin Paşinyana ünvanlandığı sualdan Baş nazir yayınmağa çalışıb və bildirib ki, azərbaycanlı hərbçinin öldürülməsi faktı təxribatdır və hazırda istintaq aparılır. Guya həmin gün növbədə duran erməni əsgərlərinin silahları yoxlanılıb və məlum olub ki, atəş açılmayıb. Paşinyan açıq yalan olaraq bildirib ki, toplanan faktlar guya Azərbaycan tərəfinə təqdim edilib. Paşinyanın bu açıqlaması ilə həmin ölkənin müdafiə nazirinin verdiyi açıqlama arasında kəskin ziddiyyət nəzərə çarpır. Paşinyan nə qədər məsuliyyətdən yayınmağa çalışsa da, Tonoyan hərbçimizin öldürülməsinə əmrin şəxsən onun özü tərəfindən verildiyini etiraf edib.

Ermənistanın Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumatına əsasən, azərbaycanlı əsgəri şəhid edən erməni hərbçilər mükafatlandırılıblar. Bəyanatda bildirilir ki, 1 iyun tarixində Xocavənd istiqamətində Azərbaycan mövqelərindən açılan atəş nəticəsində erməni əsgər Sipan Melkonyan öldürülüb. Bu isə qisas aksiyası olub.

Tonoyanın bəyanatı bir daha sübut edir ki, cəbhə xəttində törədilən təxribatların arxasında birbaşa Ermənistan rəhbərliyi dayanır.

Bütün bunlardan sonra aydın şəkildə görünür ki, Ermənistan danışıqlardan yayınmaq üçün bütün vasitələrdən istifadə edir. Hətta bu imitasiyanın fonunda Paşinyan özünün gülməli vəziyyətə qoyulmasını da qəbul edir. Faktiki olaraq onun açıqlamasından belə çıxır ki, ölkəni idarə edə bilmir. Çünki Tonoyan onunla daban-dabana zidd olan açıqlama verir. İstənilən halda, bu cür ucuz şoularla beynəlxalq ictimaiyyəti aldatmaq mümkün deyil. Bütün bunlara beynəlxalq qurumlar və həmsədr ölkələr sərt reaksiya verməli və Ermənistanın işğalçı siyasətinin, sülh danışıqlarını sabotaj etməsinin qarşısının alınması istiqamətində konkret addımlar atmalıdırlar. Yaranmış vəziyyəti "Bakı-Xəbər"ə şərh edən Azərbaycan Milli İstiqlal Partiyasının funksioneri Elşən Mustafayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistan silahlı birləşmələrinin atəşkəs rejimini pozması nəticəsində hərbi qulluqçularımızın həlak olması bir daha göstərir ki, düşmən danışıqlar prosesindən yayınmaq üçün bəhanə axtarır və açıq şəkildə təxribatla məşğuldur: "Bilirsiniz ki, artıq Ermənistanın prosesdə manevr etməyə yeri qalmayıb. Həmsədr ölkələr, beynəlxalq qurumlar ondan konkret addımlar tələb edirlər. Ermənistanın yeni hakimiyyəti bir müddət qondarma qurumu danışıqlar prosesinə soxuşdurmaq istiqamətində səylər göstərsə də, həmin istəkləri alınmadı. İndi XİN rəhbərlərinin görüşü nəzərdə tutulur. Ermənistanın əlində yayınmağa heç bir əsas yoxdur. Buna görə də təmas xəttində təxribat törətməklə sülh danışıqlarının mümkünsüzlüyü amilini önə çəkməyə çalışır. Onlar istəyirlər ki, Azərbaycan tərəfindən güclü cavab verilsin və münaqişə yeni bir fazaya qədəm qoysun. ATƏT-in həmsədrləri burada olanda mayorumuz şəhid oldu. İndi də başqa hərbçimiz. Bu da XİN başçılarının görüşü ərəfəsində növbəti təxribatdır. Ermənistanın sülh danışıqlarının konstruktiv məcrada davam etdirilməsini istəmədiyini sübut edir".

Ekspert hesab edir ki, bu cür manevrlərlə Ermənistan uzağa gedə bilməz: "Hər halda, Azərbaycan tərəfinin də səbrinin həddi var. Ermənistanın bu addımları bölgənin təhlükəsizliyi üçün ciddi təhdid yaradır. Hesab edirəm ki, bu açıq təxribatlarla bağlı beynəlxalq dairələr konkret mövqelərini ortaya qoymalıdırlar".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistan məmurları Qars və İğdırın "HDP"çi bələdiyyələrində Türkiyə əleyhinə qorxulu missiyalar aparır...

**Türkiyədə keçirilən son bələdiyyə seçkilərindən sonra bölgənin strateji əhəmiyyət daşıyan və Azərbaycanla sərhədə çox yaxın olan Qars və İğdır bələdiyyələrinə nəzarət kürdlərin partiyası kimi tanınan HDP-nin əlinə keçdi. Son bələdiyyə seçkilərində həmin şəhərlərdə seçkiləri qazanan partiyanın təmsilçiləri hazırda sözügedən bələdiyyələrə rəhbərliyi həyata keçirirlər. Maraqlıdır ki, bu hadisədən sonra Ermənistanı təmsil edən nümayəndə heyətləri bölgəyə ayaq açmağa başlayıblar.**

Ermənistanla Türkiyə arasında heç bir diplomatik münasibətlərin olmadığını, eləcə də rəsmi İrəvanın məlum bölgəyə açıq ərazi iddiası etməsini nəzərə alsaq, onda HDP-li bələdiyyə başçılarının ermənilərə göstərdikləri bu isti münasibətin həm də Türkiyənin dövlət siyasətilə uzlaşmadığını ifadə etmək olar.

Türkiyənin Qars bələdiyyəsi sədrinin erməni heyəti qəbul etməsi və ardından onlara təşəkkür ünvanlaması hər iki qardaş ölkədə böyük etiraza səbəb olub. Ziyalı və siyasətçilər bu addımı ciddi tənqid ediblər. Bu ölkədə təhsil alan azərbaycanlı tələbələr isə etirazlarını keçirdikləri aksiya ilə ifadə ediblər.

Türkiyədə keçirilən son bələdiyyə seçkilərində Qars şəhərindən bələdiyyə sədri seçilən HDP partiyasından olan kürd əsilli Ayhan Bilgenin ermənipərəst hərəkətinə həmin ölkənin siyasi dairələrindən də etiraz gəlib. Qeyd edək ki, Ayhan Bilgen sədr seçildikdən sonra Türkiyənin dövlət siyasətinin əksinə olaraq, işğalçı Ermənistanla sıx əlaqə qurmaq niyyətini öz hərəkətlərində açıq göstərir. Ermənilərin Qarsa səfərlərini təşkil edən və Ermənistandan gələn müxtəlif vəzifəli şəxslərə xüsusi qayğı göstərən A.Bilgen sonuncu dəfə Ermənistanın idman, mədəniyyət və turizm təşkilatının rəhbəri İşxan Zakaryan, İrəvan Dövlət Universitetinin tarix fakültəsinin dekanı Edik Minasyan və tarixçi Aşot Soqomonyanı qəbul edib. Görüşdən sonra isə o, sosial şəbəkədəki hesabında erməni heyətə xüsusi təşəkkürünü elan edib.

Türkiyədə təhsil alan azərbaycanlı tələbələr və orada yaşayan soydaşlarımız bununla bağlı etiraz aksiyası keçiriblər. Türkiyə vətəndaşlarının da dəstək verdiyi aksiyada ermənilərin tarixi türk torpaqlarında törətdikləri soyqırımı aktları xatırladılıb, Türkiyənin ayrı-ayrı bölgələri ilə yanaşı, Azərbaycanın Xocalı şəhərində törədilmiş soyqırımı hadisələrinə diqqət çəkilib. Aksiya iştirakçıları bildiriblər ki, Ermənistanla Türkiyənin Qars bölgəsi arasında əlaqələrin qurulması ermənilər tərəfindən törədilmiş böyük cinayətlərə bəraət verməyə, Ermənistanın işğalçılıq siyasətinə haqq qazandırmağa yönəlib.



Qars bələdiyyə sədrinin belə ermənipərəst hərəkətlərinə Türkiyə və Azərbaycanda ziyalılar, siyasətçilər, millət vəkilləri də etiraz ediblər.

Türkiyə parlamentinin üzvü, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım bildirib ki, bu tip hərəkətlər yolverilməzdir. Qars bələdiyyə sədrinin bu davranışı həm Türkiyə-Azərbaycan qardaşlığına, həm də Türkiyə dövlətinin siyasətinə ziddir.

Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun üzvü, millət vəkili Aydın Mirzəzadə də türkiyəli həmkarı ilə eyni fikirdədir. Qeyd edək ki, bu hadisəyə Türkiyədə hakim Ədalət və İnkişaf Partiyasından olan deputatlarla yanaşı, Milliyyətçi Hərəkat Partiyasının deputatları da sərt reaksiya göstəriblər.

Həmin bölgə ilə sıx təması olan, tez-tez İğdır və Qarsda layihələr icra edən İctimai-Siyasi Proseslər və Beynəlxalq Əlaqələr Mərkəzinin (İSBAM) rəhbəri Samir Adıgözəlli qəzetimizə bildirdi ki, bu hadisədən dərin sarsıntı keçirib: "Həmin ərazi həm Türkiyə, həm də bizim üçün strateji əhəmiyyət daşıyır. Bilirsiniz ki, ermənilər Fransada "Qərbi Ermənistan" dövlətinin varlığını elan ediblər. İddialarına görə, elə həmin ərazilər Ermənistana aiddir. Təsəvvür edin ki, yeni erməniçilik konsepsiyasında belə həssas məqamların yer aldığı bir vaxtda Qarsın bələdiyyə başqanı ermənilərdən ibarət məmurların təmsil olunduğu heyətə qucaq açır. Hətta məqsəd qoyurlar ki, Ermənistanın Gümrü bələdiyyəsi ilə Türkiyənin Qars bələdiyyəsini qardaşlaşdırsınlar. HDP-nin bu xəyanəti çox geniş vüsət alıb. Onlar iş adamları səviyyəsində də əlaqələrin genişlənməsi layihəsi üzərində işləyirlər. Türkiyəyə dövlət səviyyəsində ərazi iddiası olan Ermənistanla hansısa bələdiyyə səviyyəsində belə əlaqələrin qurulması yolverilməzdir. Hesab edirəm ki, Türkiyənin başqa qurumları bu məsələyə müdaxilə etməlidirlər. Söhbət Türkiyənin daxilində fəaliyyət göstərən hər hansı bir erməni dərnəyindən deyil, Ermənistan nümayəndə heyətindən gedir. Bu, açıq-aşkar, Türkiyə dövlətinə qarşı yönələn bir addımdır. Belə hərəkətlər həm də Azərbaycanda birmənalı olaraq mənfi qarşılanır. Biz həmin bələdiyyə sədri barədə sərt ölçü götürülməsini tələb edirik".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistan Azərbaycanı hərbi təlimlərin birini real döyüşə çevirmək zorunda buraxır...

**Son dövrlərdə Ermənistanda ciddi narahatlıq prezmetinə çevrilən əsas məqamlardan biri də Azərbaycan ordusunun intensivləşən hərbi təlimləridir. Əvvəlki dövrlərdən fərqli olaraq, indi bu təlimlərə erməni tərəfi daha həssas və təşviş dolu reaksiyalar verir. Əsas səbəb isə odur ki, baş verən son hadisələr cəbhədə yaxın tezlikdə irimiqyaslı toqquşmaların başlanacağını istisna etmir.**

Məhz bu vəziyyətdə Azərbaycanın təlimlərinin real döyüş əməliyyatlarına çevrilə bilməsi Ermənistanda ciddi xof yaradır. Xüsusən də Naxçıvanda keçirilən son təlimlər düşmən ölkədə ciddi narahatlığa yol açır.

"Modus Vivendi" mərkəzinin direktoru Ara Papayan bildirir ki, Azərbaycan və Türkiyə 7-11 iyun tarixləri arasında Naxçıvanın Ermənistanla sərhəd rayonlarında "Sarsılmaz qardaşlıq-2019" adı altında birgə təlimlər keçirib. Onun sözlərinə görə, İrəvan şəhərindən cəmi 50-60 kilometr məsafədə belə bir təlimin keçirilməsi, təbii ki, ciddi təşviş yaradır: "Bu çox təhlükəlidir, ona görə ki, təlimlər ehtimal edilən müharibə vaxtı Naxçıvan cəbhəsinin də açılacağını göstərir. Bunu deməyə o əsas verir ki, Azərbaycan Naxçıvan sərhədində öz mövqelərini irəli çəkib. Azərbaycanın mövqelərini irəli çəkməsi Yerasx-Vayk magistralının heç olmasa bir hissəsini birbaşa atəş altında saxlamağa imkan verir. Qarabağ müharibəsi baş verərsə, Azərbaycan tərəfi Naxçıvan və Tavuş istiqamətindən 2 alt cəbhə yaratmağa çalışacaq. Bununla da erməni tərəfinə Qarabağ cəbhəsində cəmləşməyə imkan verməyəcəklər, çünki paytaxtı qoruma təhlükəsi yaranacaq".

Türkiyə tərəfindən Rusiyaya qarşı güc nümayiş etdirildiyi barədə fikirlərə gəldikdə isə, Papyan Türkiyənin belə bir probleminin olduğuna inanmadığını qeyd edib: "Bu iki dövlət arasında çox gözəl münasibət var. Türkiyə Rusiya tərəfi ilə razılaşdırmadan Naxçıvana bu qədər qoşun yeridə bilməzdi. Hər iki dövlət Moskva razılaşması ilə Naxçıvan barədə anlaşıb. Rusiya tərəfi bu yolla ermənilərin gözünü qorxutmaq istəyir. Rusiya bildirmək istəyir ki, ermənilər onları qəbul etmədiyi və sevmədiyi bir halda necə bir təhlükə ilə qarşılaşa bilərlər. Rusiya "türk yatağı və rus çəkməsi" arasında seçim etməyi təklif edir. Bu, əsrlər boyu davam edən siyasətin növbəti təzahürüdür". O, Naxçıvan sərhədində Azərbaycan hərbi texnikasının yerləşdirilməsinin hazırda daha fəal mərhələyə keçməsi barədə fikirlərə münasibət bildirərkən qeyd edib ki, Azərbaycanın nəzərdə tutulandan daha çox sayda hərbi texnikası var: "Ciddi silah alınmasına 2000-ci illərdən başlanıb. Həmin dövrdə kəskin maliyyə vəsaitinə sahib olduğu bildirilir. Fəallığın digər səbəbi bundan ibarətdir ki, 2016-cı ilin aprel döyüşlərindən sonra Azərbaycan dərk edib ki, 1 cəbhə ilə məsələni həll etmək mümkün deyil. Qarabağ cəbhəsi müdafiə üçün bir neçə eşelonla möhkəmləndirilmiş zonadır. Qarabağ cəbhəsinin eşelonlarla möhkəmləndirilməsinə səbəb döyüşlərin olacağının gözlənilməsidir. Ancaq Naxçıvan cəbhəsində belə bir gözlənti yoxdur. Bizim ehtimalımız ondan ibarətdir ki, Azərbaycan Ermənistana qarşı geniş müharibəyə başlamayacaq. Lakin bu yalnız ehtimaldır. Tavuş və Naxçıvan istiqamətində bizim mövqelərimiz daha zəifdir. Qarabağ cəbhəsində olduğu kimi səngər və ərazilər yoxdur. Yadda saxlayın ki, Qarabağa doğru bizim cəmi 2 yolumuz var. Biri Vayots-Dzor vasitəsilə Gorusdan keçməklə Xankəndinə gedən Yerasx yaşayış məntəqəsindən, digəri isə şimal istiqamətindəndir. Azərbaycan bu istiqamətləri bombalayarsa, yalnız şimal yolu qalacaq".

Bundan öncə isə İrəvan Dövlət Universitetinin iranşünaslıq kafedrasının müdiri Vardan Voskanyan da Naxçıvan təlimləri ilə bağlı həyəcan dolu açıqlamalar vermişdi. O, Naxçıvanda Azərbaycan və Türkiyə silahlı qüvvələrinin birgə "Sarsılmaz qardaşlıq-2019" hərbi təlimlərinin keçirilməsinin birbaşa İrəvana mesaj olduğunu qeyd etmişdi. Bu səbəbdən o, Ermənistanın Naxçıvanla və Azərbaycanla bağlı iki ayrı siyasət aparmalı olduğunu da xüsusi vurğulamışdı: "Azərbaycan prezidenti İlham Əliyev tədricən Naxçıvanı bizim üçün olduqca təhlükəli zonaya çevirir. Bunun son sübutu Türkiyə ilə birlikdə keçirilən yeni hərbi təlimlərdir. Təlimlərin məqsədi təkcə döyüş vərdişlərinin işlənməsi deyil, ora əlavə təbliğati məzmun da qatılır. Bunu başa düşmək üçün təlimlərin adına baxmaq kifayətdir. Ona görə də Ermənistan Naxçıvanla bağlı ayrıca siyasi xətt işləyib hazırlamalıdır".

Qeyd edək ki, əslində Naxçıvanda Azərbaycanla Türkiyə ordularının birgə təlimləri hər il keçirilir. Ermənistan mediası və siyasi ekspertlərinin budəfəki təlimlərdən daha çox qorxmasının səbəbi, ekspertlərin fikrincə, cəbhə bölgəsində və Ermənistandakı siyasi vəziyyətlə bağlıdır. Belə vəziyyətdə hesab edilir ki, Naxçıvanda keçirilən hərbi təlimlər Ermənistana xəbərdarlıq mesajıdır. Yəni müharibə başlayarsa, Türkiyənin Azərbaycana dəstək verəcəyi, ən azı Naxçıvanı qoruyacağı aşkardır. Ermənistan Rusiyadan daim hərbi dəstək istəyirsə, Azərbaycan da Türkiyədən eyni dəstəyi istəyəcək. İkincisi, Naxçıvandakı hərbi birgə hərbi təlimlər Türkiyənin Naxçıvanda hərbi baza formalaşdırması prosesini sürətləndirə bilər. Hətta belə fikirlər səslənir ki, hər hansı birgə hərbi təlimlərdən sonra Türkiyənin hərbi hissəsi Naxçıvanı tərk etməyərək, orada yerləşə bilər. Üçüncüsü, Naxçıvandakı hərbi təlimlər Rusiyanı narahat etmir. Bu mövzuda rusiyalı rəsmilərin dilindən hər hansı açıqlama səsləndirilməyib. Bu da Ermənistanda narazılıq yaradır. Rusiya NATO-nun Gürcüstandakı təlimlərini tənqid edir. Ancaq Rusiya NATO dövləti olan Türkiyənin Azərbaycanla birgə hərbi təlimlərinə etiraz etmir. Çünki Rusiyanın özü Türkiyə ilə əməkdaşlıq edir, qardaş ölkəyə müasir silahlar satır. Ona görə də Kreml Türkiyə-Azərbaycan birgə hərbi təlimlərinə etiraz etmək istəmir. Bunun özü də Azərbaycanın xeyrinədir. Ən nəhayət, yuxarıda qeyd olunanlardan göründüyü kimi, Naxçıvandakı hərbi təlimlərin psixoloji tərəfi də var. Belə hərbi təlimlər Ermənistanda ciddi ruh düşkünlüyü yaradır. Özü də bütün bunlar o fonda baş verir ki, cəbhədə baş verənlər istənilən an genişmiqyaslı savaşa gətirib çıxara bilər. Xüsusən də düşmənin atəşkəsi getdikcə daha davamlı şəkildə pozması bunu istisna etmir.

Xatırladaq ki, bu günlərdə təmas xəttinin Tərtər istiqamətində düşmən ordusu tərəfindən atəşkəsin pozulması nəticəsində Azərbaycan əsgəri Xəlilov Elşən şəhid olub. Bundan əvvəl isə təmas xəttinin Ağdam istiqamətində düşmən snayperi Azərbaycan ordusunun mayor rütbəli tabor komandiri Aqil Omarovu vurmuşdu.

Mayorun vurulmasından sonra düşmən tərəf açıqladı ki, iyunun 1-də təmas xəttinin Xocavənd istiqamətində əsgər Sipan Melkonyan Azərbaycan ordusunun mövqelərindən açılan atəşlə vurulub. Və Ermənistan Müdafiə Nazirliyi bu hadisəyə görə "qisas alınacağını" açıqlamışdı. İndi Ermənistanın müdafiə naziri David Tonoyan təmas xəttinin Tərtər istiqamətində Azərbaycan əsgərinin vurulması üçün şəxsən əmr verdiyini təsdiqləyib. Belə ki, Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumata görə, David Tonoyan "Azərbaycan Silahlı Qüvvələrinin açdığı atəşlə vurulmuş hərbi qulluqçu Sipan Melkonyanın ölümünə görə cəza tədbirlərini həyata keçirən" hərbçilərə yüksək mükafatlar təqdim edib. Məlumata əsasən, hərbçilər onlara verilmiş tapşırığı "yüksək səviyyədə" yerinə yetiriblər. Bu məlumat təmas xətti boyu son günlər düşmən qüvvələrinin bir-birinin ardınca həyata keçirdiyi təcavüzkar əməllərin məhz Ermənistan rəhbərliyinin şəxsi göstərişləri ilə baş verdiyini birbaşa təsdiq edir. Belə ki, müdafiə naziri Tonoyan Azərbaycan əsgərinin vurulması, yaxud "cəza tədbirlərinin görülməsi" üçün şəxsən tapşırıq verib və indi bu tapşırığı yerinə yetirənləri mükafatlandırıb. Deməli, bununla düşmən açıq nümayiş etdirir ki, Qarabağ məsələsinin dinc yolla tənzimlənməsində maraqlı deyil. Elə bu səbəbdən baş verənlər cəbhədə istənilən an genişmiqyaslı toqquşmaların başlanmasını istsina etmir. Buna görə də Azərbaycan ordusunun təlimlərinin istənilən an real döyüş əməliyyatlarına keçməsi də tamamilə gözlənilən hesab edilir. Ehtiyatda olan polkovnik Şair Ramaldanov da hadisələrin məhz bu səpkidə inkişafını istisna etmir: "Azərbaycanın müdafiə naziri Zakir Həsənov bütün çıxışlarında düşmənə xəbərdarlıq etmişdi ki, təxribata əl atsanız, Silahlı Qüvvələrimiz qat-qat güclü zərbə ilə cavab verəcək. Bu, cəbhə bölgəsində olan bütün bölmələrə tapşırıqdır. Xəbərdarlıqdan sonra düşmən bir qədər təxribat xarakterli addımları dayandırdı. Baş verən son hadisələr isə göstərir ki, erməni tərəfi cəbhədə təxribat törədilməsində və Azərbaycanın cavab addımı atmasında maraqlıdır. Azərbaycan aprel döyüşlərindən də şiddətli döyüşlər, antiterror əməliyyatı həyata keçirərək, işğalçı, quldur qüvvələri darmadağın edərək ərazi bütövlüyünü bərpa etməyə hazırdır. Hesab edirəm ki, son təxribatlaraa bu fonda qiymət vermək lazımdır". Ş.Ramaldanov vurğulayıb ki, son təxribatlardan sonra cəbhədə ermənilərin itkiləri sonuncu olmayacaq: "Proses davam edəcək. Azərbaycan ordusu öz şəhidlərinin qisasını alacaq, qanını yerdə qoymayacaq. Bu, ermənilərə dərs olmalıdır. Azərbaycan öz yumruğunu düşmənə göstərəcək. Təbii ki, erməni işğalçı qüvvələri bütün təmas xəttində bu gücü, bu narahatlığı, bu qisası hiss edəcək. Həm əsgərlər, həm zabitlər, həm də valideynlər bunu görəcəklər. Ona görə düşünürəm ki, Ermənistan tərəfi hələ çox itkilər verəcək".

Polkovnik qeyd edib ki, bundan sonra Ermənistanın mövqeyindən çox şey asılıdır: "Atılan addımlar Ermənistan rəhbərliyini təxribatlar törətməkdən əl çəkməyə məcbur etməsə, Azərbaycan ordusu öz torpaqlarını güc yolu ilə azad edəcək".

Beləliklə, hadisələrin inkişaf axarı yaxın tezlikdə cəbhədə erməni təxribatları nəticəsində yeni Qarabağ savaşının alovlanmasını istisna etmir. Bu durumda isə erməni tərəfinin olduqca sərt zərbələr alması da qaçılmaz sayılır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Prezident İlham Əliyev zaman-zaman əhalinin vəziyyətinin yaxşılaşdırılması üçün tədbirlər görür. Məlum olduğu kimi, neçə il idi ki, problemli kreditlərlə bağlı ciddi çətinliklər yaşanırdı. Ölkə başçısının qərarı ilə bu məsələ yoluna qoyuldu. Məsələ ondadır ki, 10 min dollara qədər olan kreditlərlə bağlı Prezident 682 milyon manat vəsait ayırıb.**




# Mərkəzi Bank kredit faizlərini endirdikcə kommersiya bankları varlanır - həm də əhalinin hesabına...

## *Rəsul Cahangirli: "Bütün bunlar onu göstərir ki, banklar məqsədyönlü şəkildə soyğunçuluqla məşğuldurlar"*

Prinsipcə, banklar aldıqları vəsaitlər hesabına sahibkarlara, fiziki şəxslərə verdikləri kredit faizlərini aşağı salmalıdırlar. Bu minvalla, banklar real sektorun inkişafı üçün maliyyə vəsaitinin qoyuluşuna şərait yaratmalıdırlar.

Bu arada Azərbaycan Mərkəzi Bankının İdarə Heyəti uçot dərəcəsinin 8.75%-dən 8.5%-ə endirilməsi barədə qərar qəbul edib. Qərara əsasən, faiz dəhlizinin yuxarı həddi 10.5%, aşağı həddi isə 6.5% (uçot dərəcəsinə ±2%-lik simmetrik diapazonda) səviyyəsində müəyyən olunub.

Bu qərar faktiki inflyasiyanın hədəf diapazonunun (4±2%) mərkəzindən aşağıda olması, inflyasiya gözləntilərinin sabitliyi, xarici mühitin əlverişli qalması və yenilənmiş makroiqtisadi proqnozlar nəzərə alınmaqla qəbul olunub.

Bu gün sahibkar istənilən bankdan kredit götürməkdə çətinlik çəkir. Yaxud Sahibkarlığın İnkişafı Fondunun ayırdığı güzəştli krediti sahibkar bankdan gedib ala bilmir. Əmanətləri 12 faizlə götürür, amma krediti 25 faizlə verir.

Görülən bütün müsbət addımlara baxmayaraq, banklar bundan öz mənafeyi üçün istifadə edirlər. Əhali hesabına daha da varlanmaq istəyirlər. Qeyd edək ki, hazırda kommersiya bankları kreditləri 36 faizə qədər təklif edirlər.

**Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, banklar hər fürsətdə soyğunçuluqla məşğuldurlar:** "Bunu mövcud vəziyyət açıq-aşkar sübut edir. Məsələ ondadır ki, problemli kreditlərlə bağlı ölkə başçısı qərar verəndə kredit faizlərinin aşağı düşəcəyinə böyük ümid yarandı. Çünki sözügedən qərar bankların maliyyə imkanlarını xeyli artırdı. Ancaq çox təəssüflər olsun ki, bu baş vermədi. Azərbaycanda bank faizlərinin yüksək olması bütün dövrlər üçün əsas narazılıq yaradan səbəb olub. Faizlərin yüksək olması dəfələrlə yüksək səviyyədə deyilsə də, kommersiya bankları kredit faizlərini ciddi şəkildə aşağı salmaqda maraqlı görünmürlər. Bir sıra tədbirlərin görülməsi belə bu sahədə vəziyyəti dəyişməyib. Bütün bunlar da onu göstərir ki, banklar məqsədyönlü şəkildə soyğunçuluqla məşğuldurlar. Bu onu göstərir ki, banklar sahibkarlığın inkişafında, fiziki şəxslərin ucuz kredit resursları əldə etməsində maraqlı deyillər. Əslində, faizlərin yüksək olması banklara qısamüddətli gəlir gətirsə də, strateji baxımdan bankların maraqlarına uyğun deyil. Buna baxmayaraq, yenə də onlar öz işindədirlər".

*"Banklar sahibkarlığın inkişafında, fiziki şəxslərin ucuz kredit resursları əldə etməsində maraqlı deyillər"*

***Vidadi ORDAHALLI***

**Ölkəmizdə taxıl biçini başlayıb. Məlumdur ki, taxıl biçini üçün kombaynlardan istifadə olunur. Ancaq bəzi bölgələrdə taxıl biçini üçün kombayn çatışmır. Bu səbəbdən məhsul yığımında problem yaşanır.**



# Ölkədə kombayn azlığı var, taxıl batır, Kənd Təsərrüfatı Nazirliyindən reaksiya...

Kombayn çatışmazlığı Biləsuvar rayonunun İsmətli kəndində qeydə alınıb. Adıçəkilən kənddə bu il 500 hektara yaxın taxıl əkilib. Bu il məhsuldarlıq da yüksək olub. Lakin kombayn çatışmazlığı səbəbindən fermerlər biçin apara bilmirlər. Təsərrüfat sahiblərinin sözlərinə görə, məhsul günü-gündən məhv olur: "Orta hesabla 30 sentner götürməli idim. Artıq vaxtında biçilmədiyinə görə 7-8 sentneri məhv olub. 2-3 gündən sonra məhsulun 50 faizi məhv olacaq. Bir həftə sonra isə sahəyə kombayn girsə, sünbüllər qırılıb töküləcək. 3 hektar sahədə arpa əkmişəm. Orta hesabla 10 ton götürməli idim. 2-3 günə arpa biçilməsə, mən 3-4 ton məhsul götürəcəm".

Fermerlər qeyd edirlər ki, onlar aidiyyəti qurumlara müraciət edib, amma heç bir nəticəsi olmayıb: "Hər dəfə deyirlər "gedin sabah gələcək". Bir həftədir yollardayıq, kombayn göndərilmir. Arpa isə gözləmir, məhsul yetişdikcə yerə tökülür".

Taxıl biçini üçün kombaynın nə səbəbdən çatışmadığını öyrənmək üçün araşdırma apardıq. Məlum oldu ki, arpa biçini üçün kombayn sarıdan heç bir problem yoxdur.

Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, bu il ölkədə 1 009 139,8 hektar sahədə taxıl əkini aparılıb. Bundan 6 777 793 hektarı buğda, 331 346,8 hektarı arpa sahəsidir.

İyunun 7-nə olan məlumata görə, ölkə ərazisində 120 963,5 hektar ərazidə taxıl biçini aparılıb, 119 001,5 hektar ərazidə arpa, 1 962 hektar ərazidə buğda biçini başa çatıb. Ümumilikdə, bu günə qədər ölkə üzrə 351 958,7 ton taxıl istehsal olunub, orta məhsuldarlıq hər hektara 29,1 sentner təşkil edir.

Biçin prosesi əsasən Aran rayonlarında və dəmyə əkilmiş ərazilərdə aparılır. Məlumat üçün bildirək ki, Kürdəmir rayonunda 29 926 hektar arpa sahəsinin 26 937 hektarı artıq biçilib. Neftçalada 21 590 hektar, Biləsuvarda 10 360 hektar, Sabirabadda 6 136 hektar, Cəlilabadda 3 620 hektar sahədə arpa biçini yekunlaşıb. Digər rayonlarda da arpa biçini qrafikə uyğun davam etdirilir.

**Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Vüqar Hüseynov bildirdi ki, Biləsuvar, Bərdə və İmişli rayonlarında taxıl biçini zamanı kombayn çatışmazlığı ilə bağlı iddiaların əsası yoxdur:** "Konkret olaraq bu il Biləsuvar rayonunda 14900 hektar sahədə arpa əkini aparılıb. İyunun 7-dək arpa sahələrinin 10360 hektarı, yəni təxminən 70 faizi biçilib. Kombayn çatışmazlığı vardısa, sahələrin 70 faizi necə biçilib? Hazırda Biləsuvar rayonunda biçin prosesinə 65 kombayn cəlb olunub. Konkret olaraq İsmətli kəndində 3 kombayn işləyir, bu kənd ərazisində arpa biçini 11 iyun axşam saatlarına kimi başa çatacaq. Bərdə rayonunda da 2568 hektar arpa sahəsinin 2058 hektarı biçilib. İmişlidə isə 6322 hektar arpa sahəsinin 2573 hektarında biçin başa çatıb".

Həmsöhbətimiz onu da vurğuladı ki, ölkədə olan kombaynların hamısı "Aqrolizinq"in balansında olan kombaynlar deyil: "Sahələrdə gördüyünüz kombaynların bir hissəsi fiziki şəxslərə, digər hissəsi isə böyük təsərrüfatlara məxsus şəxsi kombaynlardır. Ölkədə kifayət qədər kombayn var, mövcud kombaynların sayı taxıl biçinini itkisiz başa çatdırmağa imkan verir. Bu baxımdan, kombayn çatışmazlığı ilə bağlı iddialar əsassızdır. Biçin növbəli şəkildə aparılır, aqroservislərdən lizinqə verilmiş kombaynlar 50 hektardan aşağı ərazilərdə biçin aparırlar. Kombayn çatışmazlığı olsaydı, qısa müddət ərzində 120 mindən artıq arpa sahəsi necə biçilə bilərdi?"

*Vüqar Hüseynov: "Biləsuvar, Bərdə və İmişli rayonlarında taxıl biçini zamanı kombayn çatışmazlığı ilə bağlı iddiaların əsası yoxdur"*

*Qadir Bayramlı: "Kombaynların iş fəaliyyəti optimal qrafiklə nizamlanmır"*

**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) dosenti Qadir Bayramlı qeyd etdi ki, kombayn çatışmazlığı əvvəlki illərlə müqayisədə çox deyil:** "İndi kombaynların əldə olunmasında problem var. Kombaynların iş fəaliyyəti optimal qrafiklə nizamlanmır. Hər kəs eyni vaxtda öz sahəsini biçdirmək istəyir. Kombayn və otu presləyən avadanlıq yetərincə deyil. Fermerlərin taxıl biçini zamanı problem yaşamaması üçün müəyyən işlər görmək lazımdır. Fermerlərin biçin zamanı kombayn kirayə etməsi üçün şərtləri asanlaşdırmaq lazımdır".

Həmsöhbətimiz onu da əlavə etdi ki, kombaynların bölgələr üzrə paylanmasına nəzarət olunmalıdır: "Elə rayon var ki, orada 5-6 kombayn boş dayanıb. Bəzi bölgələrdə isə kombayn yetərli sayda deyil. Rayonlararası əlaqə bir mərkəzdən idarə olunmalıdır ki, aqrar sahədə problem yaşanmasın".

***Günel CƏLİLOVA***

**Məlum olduğu kimi, bir müddət əvvəl ölkənin bank sektoru ilə əhali arasında ciddi problem yaranmışdı. Ölkədə baş verən gözlənilməz iki devalvasiya hadisəsindən sonra əhalinin çox böyük bir təbəqəsi dollarla olan kreditləri banklara geri qaytarmaqda çətinliklər çəkdi. Bunun da nəticəsində ölkədə problemli kreditlərdən əziyyət çəkən böyük bir vətəndaş ordusu yarandı. Həmin müddət ərzində banklar əhaliyə heç bir güzəşt etməmək yolunu tutdular.**

# Keçmiş bank kollektorlarının dəhşətli cinayətləri - banklar hətta residivistləri müştərilərin üstünə yönəldirmiş...

## *Aydın Hüseynov: "Vətəndaşa hədə-qorxu gəlmək, onunla başqa üsullarla danışmaq qəti şəkildə yolverilməzdir"*




Onlar əhalidən müxtəlif üsullarla pullarını geri almaq üçün baş sındırırdılar. Bunların heç biri fayda vermədikdə isə vətəndaşlar məhkəmələrə verilirdi. Həmin müddət ərzində əmlakı müsadirə edilən, hətta krediti ödəmədiyinə görə həbsə salınanlar da olub. Nəhayət, problemin ciddi xarakter aldığını görən ölkə rəhbərliyi bu məsələyə əncam çəkmək yolunu tutdu. Prezident İlham Əliyevin müvafiq fərmanı ilə vətəndaşların kredit borcları ilə bağlı ciddi güzəştlər tətbiq edildi. Devalvasiyadan sonra bankların əhalidən aldığı pulun böyük hissəsi kompensasiya şəklində vətəndaşlara qaytarıldı.

Ancaq buna qədərki dövrü tədqiq edəndə məlum olur ki, banklar onlara borcu olan vətəndaşlara qarşı çox böyük qanunsuzluqlara yol veriblər. Belə hərəkətlərin də əksəriyyəti vətəndaşla bank arasında borcun alınması üçün istifadə edilən kollektor şirkətlər tərəfindən edilib. Həmin vaxt ölkədə banklarla bağlı geri qaytarılmayan kredit və borc problemi həll edilmədikcə, kollektorlarla bağlı dəhşətli nüanslar ortaya çıxırdı. Edilən şikayətlərdən məlum olurdu ki, kollektorlar banklarla əlbir olaraq kreditini geri qaytara bilməyən vətəndaşa hədə-qorxu gəlmək və başqa qanusuz üsullarla pulu tələb edirdilər. Ən maraqlısı isə budur ki, banklar bu qanunsuz fəaliyyətə qoluzorlu idmançıları, hətta bir neçə dəfə residiv əməl törətmiş keçmiş məhkumları da cəlb edirdilər. Aparılan araşdırmalar zamanı məlum olub ki, kollektor adı ilə fəaliyyət göstərən şəxslər borclu vətəndaşlara qarşı olmazın cinayətlər ediblər. Borclu olan xanımları ofisə dəvət edib, onlara qarşı nalayiq hərəkətlərə yol verib, sonra videoya çəkib, "borcunu qaytarmasan bunu yayacayıq" deyənlər də olub. Vətəndaşı yolun ortasında avtomobilindən düşürüb, sonra döyüb avtomobilini əlindən alanlar, heç bir məhkəmə sanksiyası olmadan, borclunun evinə girib istədiyi əşyanı götürüb aparanlar da qanunsuz fəaliyyət göstərən banka məxsus qoçu dəstələrin əməlləri sırasına aiddir. Maraqlıdır ki, ölkədə kollektorların fəaliyyəti qanunla tənzimlənməsə də, vətəndaşa qarşı təzyiq və təhdidlərlə məşğul olan həmin qurumlar edilən şikayətlərə baxmayaraq, hər hansı məsuliyyətə də cəlb olunmurlar. Bu sahənin ekspertləri hesab edirlər ki, kollektor adı ilə fəaliyyət göstərən şəxslərin əməlləri qanunsuzdur. Çünki banklar problemli borc işini kollektor qurumuna verəndə bank sirrini pozmuş olurlar. Həm banklar haqqında qanuna, həm də Mülki Məcəlləyə görə, bankla olan istənilən əməliyyat haqqında, kredit haqqında məlumatı yalnız müştərinin özünə vermək olar, bir də müəyyən dövlət orqanlarına. Kollektor qurum olaraq bunların heç birinə aid deyil. İlk növbədə burada bank sirri pozulur. Digər ölkələrdə icazə verilir ki, kollektora həmin məlumatlar verilsin. Amma həmin ölkələrdə də kollektorların fəaliyyəti qanunla tənzimlənir. Xarici ölkələrin iş prinsiplərindən məlumdur ki, hər kəs kollektor işi ilə məşğul ola bilməz. Birinci növbədə onun özünün pulu olmalıdır. Müəyyən nizamnamə kapitalı olmalıdır ki, bilinsin, bu insanlar ciddi insanlardır, quldurlar, residivist cinayətkarlar deyil. İkinci məsələ odur ki, kollektorların təhsilinə, təcrübəsinə qanun müəyyən tələblər qoyur, qanunda müəyyən məhdudiyyətlər olur. Hansısa cinayətə görə məhkum olunmuş şəxs kollektor işləyə bilməz. Yəni bütün bu məhdudiyyətlərə cavab verən şəxslər xaricdə kollektor ola bilərlər. Xaricdə qanunlar tənzimləyir ki, kollektor hansı yolla, hansı üsullarla hansı vətəndaşlardan borcu tələb edə bilər, gün ərzində vətəndaşa neçə dəfə zəng etmək hüququna malikdir, necə danışmalıdır və sair. Hətta orada vətəndaşa da ixtiyar verilir ki, kollektorla olan görüşünü videoya çəkə bilsin. Qanun bunların hamısını tamamilə tənzimləyir, bizdə bunların heç biri yoxdur. Azərbaycanda kollektorun nizamnamə kapitalı yüz manatdır, yəni pulları yoxdur. İlk gündən ona istiqamətləniblər ki, camaatın pulunu əllərindən alsınlar. İstədikləri vaxt vətəndaşlara zəng edirlər, söyürlər, qorxudurlar, evinə gedirlər, döyürlər, saxlayırlar. Hətta ölkədə kollektorlardan biri bir müddət əvvəl vətəndaşdan böyrəyini satmağı istəmişdi. Bu baxımdan, kollektor fəaliyyətinin tənzimlənməsi ortaya ciddi məsələ kimi çıxır. Problermli kreditlərin mövcudluğunun ən qızğın vaxtında kollektorlar borcluların başına min oyun açıb və təəssüf ki, bütün bunlar cəzasız qalır. Kollektorların müştərilərin başına açdığı oyunlara hansı formada hüquqi qiymət verilməlidir?

## *"Belə hərəkətlər olubsa..."*

**Millət vəkili, iqtisadçı Aydın Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ölkə rəhbərliyi tərəfindən vətəndaşların problemini aradan qaldırmaq istiqamətində ciddi addımlar atılıb: "Bilirsiniz ki, Prezidentin müvafiq fərmanı ilə 10 min dollara kimi borcu olan vətəndaşlarla bağlı çox humanist addım atıldı.** Bununla bağlı olan bütün prosedurlar birtərəfli qaydada ləğv edildi. Hətta problemli kreditlərlə bağlı məhkəmələrin gedişinə belə son qoyuldu. O ki, qaldı bankların həm keçmişdə, həm də indiki dönəmdə öz borclarını qanunsuz üsullarla tələb etməsinə, bu yolverilməzdir. Banklarımız bu cür məsələlərdə qanuni tələblərə riayət etməlidirlər. Vətəndaşın bank qarşısında hər hansı öhdəliyinin olması heç də o anlama gəlmir ki, ondan pulu qanunsuz elementlərin təzyiqi ilə almalısan. Bunun üçün qanunun tələbləri mövcuddur. İnsanı hədələmək, şantaj etmək isə cinayətdir. Banklar çalışmalıdırlar ki, müştəri ilə dil tapsınlar. Ölkə rəhbərliyi belə humanist addım atırsa, banklar nədən sərt və hətta cinayət üsullarından istifadə etməlidir? Bu heç də o demək deyil ki, müştərilər də götürdüyü öhdəlikləri yerinə yetirməkdən əsaslı səbəblər olmadan boyun qaçırmalıdırlar. Vətəndaşa hədə-qorxu gəlmək, onunla başqa üsullarla danışmaq qəti şəkildə yolverilməzdir. Belə hərəkətlər olubsa, onu edənlər, mütləq mənada, qanun qarşısında cavab verməlidirlər".

***Məhəmmədəli QƏRİBLİ***

**Azərbaycan "Maarifçi Qadınlar" İctimai Birliyi dövlət qeydiyyatına alındığı 2013-cü ildən etibarən təhsili millətin bu günü, sabahı, ümumiyyətlə gələcəyi hesab edərək ardıcıl layihələr həyata keçirir.**

# Şərqiyyə Məmmədova İstanbulda yaşayan əmək miqrantlarımızın 500 nəfərdən çox uşaqlarına yazıb-oxumaq öyrədir...

Birliyin təhsil sahəsində hər il həyata keçirdiyi layihə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən maliyyələşir.

2019-cu ildə "Maarifçi Qadınlar" İctimai Birliyi "Türkiyədə yaşayan, Azərbaycan vətəndaşı olan əməkçi miqrantların təhsildən kənarda qalan məktəbyaşlı uşaqlarının təhsilə cəlb edilməsi" adlı layihənin qalibi olub.

Layihə ilə bağlı "Qüvvət elmdədir, başqa cür keç kəs heç kəsə üstünlük eyləyə bilməz" adlı ilk tədbir də bu ilin 25 may tarixində Sultanqazidə yaşayan vətəndaşlarımız üçün keçirilib. Tədbirdə 30-dan artıq vətəndaşımız iştirak edib.

İkinci tədbir mayın 26-daQaradəniz məhəlləsində yaşayan vətəndaşlarımız üçün keçirilib. Onların bir qrupu (30 nəfərdən artıq) saat 15:00-da toplantıya qatılıb, digər 30 nəfərdən artıq bir qrup isə iş saatları ilə əlaqədar olaraq saat 17:00-da toplaşıb. 26 mayda 60-a yaxın Azərbaycan vətəndaşı aidiyyəti üzrə maarifləndirilib.

Layihə ilə əlaqəli üçüncü toplantı 01 iyun 2019-cu il tarixdə Bayrampaşa bələdiyyəsinin toplantı salonunda keçirilib. Tədbirdə əsasən Bayrampaşa mərkəz və Qartaltəpədə yaşayan 100-ə yaxın vətəndaşımız iştirak edib.

Keçirilən tədbirlərin hər birində məqsəd Vətəndən ayrı düşmüş, qardaş Türkiyə Cumhuriyyətində əmək fəaliyyəti ilə məşğul olan vətəndaşlarımızın təhsil almaq imkanından məhrum olmuş məktəb yaşlı uşaqlarını təhsilə cəlb etmək idi.



Layihə rəhbəri, " Maarifçi Qadınlar" İctimai Birliyinin sədri Şərqiyyə Məmmədova hər üç tədbirdə soydaşlarımıza çağırış edib: "Ən dəyərli varlığımız olan, Vətənimzin və millətimizin gələcəyi hesab etdiyimiz balalarımızın təhsilə cəlb edilməsi üçün hər bizimiz axtarışda olaq, birlikdə onların qaranlıq həyatına işıq verək."

**O əlavə edib ki, əvvəlki illərdə olduğu kimi, məktəb yaşlı uşaqlarımızın təhsilə cəlb edilməsi üçün soydaşlarımızdan ibarət təşəbbüs qrupları yaradılıb.**

Ş.Məmmədova da bildirib ki, millətimizin, dövlətimizin gələcəyi, qurucuları olan məktəbyaşlı uşaqları təhsilə cəlb etmək üçün, təkcə layihə çərçivəsində deyil, il boyu fəaliyyətlərini davam etdirirlər və bu fəaliyyət nəticəsində 500-ə yaxın soydaşımız təhsilə cəlb edilib, davamlı olaraq da cəlb edilməkdədir.

***Namiq QULİYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# Nəsimi ili: klassik ədəbi irsə müasir baxış, milli və bəşəri ideyaların təbliği

*İki cahana sığmayan, iki cahanı özünə sığdıran fəlsəfi düha...*

**Gənc yaşlarımızdan dahi Nəsimini bizə tanıdan ən məşhur misraları: "Məndə sığar iki cahan, mən bu cahana sığmazam..." oldu. Özünü "gövhəri-laməkan" adlandıran bu fəlfəfi fikir sahibi bütün bəşəri dəyərlərdən ucada dayandığını məhz "kövnü-məkanə" sığmaması ilə izhar edir, yaşadığı qaragüruhçu dövrdə fəlsəfi düşüncəsinin anlaşılmamasından "şərhü-bəyanə sığmazam" deyə gileylənirdi...**

### Nəsimi irsinə Prezident diqqəti və 50 il öncə...

Azərbaycan xalqı o cəhətdən özünü xoşbəxt hesab edə bilər ki, ölkənin başında hər zaman ümumxalq dəyərlərinə sayqı ilə yanaşan, milli-mənəvi irsimizə hörmət hissinin qorunub saxlanması və gənc nəslə aşılanmasında örnək ola biləcək rəhbərlər dayanıb. Bu sözləri tam mənası ilə Nəsimi irsinin yaşadılmasına da aid etmək olar. Bildiyimiz kimi, Prezident İlham Əliyev dahi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə 2019-cu ilin "Nəsimi ili" elan olunması ilə bağlı sərəncam imzalayıb. Nəsimi irsinə bu ehtiramın əsası isə düz 50 il bundan öncə qoyulub. Belə ki, 1969-cu ildə o zaman Respublikanın rəhbəri olmuş Heydər Əliyevin təşəbbüsü ilə klassik Azərbaycan ədəbi irsinin parlaq nümunələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyiYUNESKO-nun tədbirlər siyahısına daxil edilib və həmin yubiley 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunub.Elə o dövrdən də Nəsimi irsinin və bütövlükdə klassik Azərbaycan mədəniyyətinin daha əhatəli araşdırılması istiqamətində önəmli addımlar atılıb, Azərbaycan kinematoqrafiyasında Nəsiminin yaddaqalan obrazı yaradılıb, 1979-cu ildə Bakının mərkəzində şairin əzəmətli heykəli ucaldılıb. Bu gün Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutu ölməz şairin adını daşıyır. Bütün bunlarla yanaşı, 2017-ci ilin may ayında Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyinin qeyd edilməsi, 2018-ci ilin sentyabr ayında ölkəmizdə təntənəli şəkildə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalının keçirilməsi də ölməz dühanın xatirəsinə dərin ehtiramın real təzahürü sayılmalıdır.

### Azərbaycan xalqının bəxtinə yazılan dahi şəxsiyyətin dilimizin inkişafında əvəzsiz rolu...

Bəs, kim idi Nəsimi? Azərbaycan xalqının bəxtinə yazılan bu dahi şəxsiyyətin barəsində nələri bilirik? Nəsiminin həyatı haqqında geniş məlumat olmasa da, mənbələrin əksəriyyəti onun adını İmadəddin (dinin bilicisi) kimi göstərir. Nəsiminin əsl adının Əli və Ömər olduğunu qeyd edən mənbələrdə var. Əsərlərini təhlil edənlər şeirlərini Seyid Əli imzası ilə yazan Nəsiminin Şamaxıda o dövrün ən yaxşı universitetlərinin tələbinə cavab verəcək dərəcədə kamil təhsil ala bildiyini yazır. Qeyd olunur ki, o, klassik Şərq və qədim yunan fəlsəfəsini, habelə ədəbiyyatını dərindən mənimsəyib, islam və xristian dinlərinin əsaslarına yaxından bələd olub, tibb, astronomiya və astrologiya, riyaziyyat və məntiq elmlərinə dərindən yiyələnib. Nəsimi fars və ərəb dillərini o qədər mükəmməl bilib ki, həmin dillərdə də Azərbaycan dilində olduğu qədər gözəl şeirlər yazıb. Onun Azərbaycan türkcəsində yazdığı şeirlər həm zənginliyi, həm də xalq nitqinə yaxınlığı ilə seçilir. Bu şeirlərin özəlliyi həm də ondadır ki, onlarda şifahi ədəbiyyatımızdakı atalar sözləri, zərb-məsəllər, hikmətli sözlər geninə-boluna işlədilir. Nəsiminin rübailəri Azərbaycan xalq yaradıcılığı nümunəsi olan bayatılara çox yaxındır. Onun poeziyasında Azərbaycanın, eləcə də digər Şərq ölkələrinin məşhur alim və şairlərinin - Əli ibn Sina, Xaqani, Nizami, Fələki, Həllac Mənsur, Fəzlüllah Nəimi, Şeyx Mahmud Şəbüstəri, Övhədi Marağayi və başqaları tez-tez xatırlanır.

### Nəsimini dar ağacına aparan əsrarəngiz yol...

İlk şeirlərini müəllliminə ehtiram və yaxınlıq əlaməti olaraq məşhur sufi Hüseyn Həllac Mənsurun şərəfinə "Nəsimi" və "Hüseyni" təxəllüsü ilə yazan Nəsimi XIV əsrin sonlarından Azərbaycanda geniş yayılan "Hürufi" sufi təriqətinə qoşulur və təriqətin qurucusu təbrizli Fəzlullah Nəiminin şərəfinə özünə "Nəsimi" təxəllüsünü götürür. Nəsimi qısa zamanda hürufiliyin nəinki Azərbaycanda, həmçinin Misir, İraq, İran və Anadoluda ən tanımmış simalarından birinə çevrilir, şeirləri dildən-dilə gəzir. Hürufiliyin siyasi təhlükəsindən qorxan Teymurləng hakimiyyəti 1394-cü ildə F.Nəimini edam edir. Müəlliminin edamından dərin sarsıntı keçirən Nəsimi onun təriqətini yaymaq üçün Təbrizə, oradan isə Anadoluya gedir. Hürufilik təlimi əsasında irəli sürdüyü panteist ideyaları üstündə 1417-ci ildə həbs edilən Nəsimi Suriyanın Hələb şəhərində edam olunur. Şairin məzarı da Hələb şəhərindədir. Nəsimini Təbrizi adı ilə təqdim edən İbn əl-İmad Hənbəli yazır: "O, hürufilərin şeyxidir, Hələbdə sakin idi, tərəfdarları çoxaldı, bidəti artdı, iş o yerə çatdı ki, sultan onun öldürülməsini əmr etdi, boynu vuruldu, dərisi soyuldu, çarmıxa çəkildi".

Filosof-şairin poeziyası çox tez bir zamanda Orta Asiya, Türkiyə və İran xalqları arasında populyarlıq qazanır, Həllac Mənsurla birlikdə onun adı əqidəsi uğrunda cəsurluq rəmzinə çevrilir. Yaradıcılığının ilk dövrlərində Nəsimi də ustadı Nəimi kimi sufizm mövqeyində dayanır və tanınmış sufi şeyxi Şiblinin təlimini davam etdirirdi. Bu mərhələdə şair öz əsərlərini "Hüseyni", "Seyid Hüseyni", "Seyyid" təxəllüsləri ilə yazır. Lakin X əsrin sufi İran filosof-şairi Hüseyn Həllac Mənsurun təlimi Nəsiminin ruhuna daha yaxın idi. İlk dəfə məhz Həllac Mənsur "Mən allaham!" fikrini işlətmiş, bu cür küfr sayılan fikirlərinə görə təqiblərə məruz qalmış və sonunda ömrünü dar ağacında başa vurmuşdu. Əqidəsi uğrunda bu cür fədakarlıq göstərməyə hazır olan Nəsimi əsərlərində onu tərənnüm edir, hətta hürufi təlimini qəbul etdikdən sonra da Həllaca vurğunluğundan geri qalmırdı. Bu sözləri müəyyən mənada Nəsiminin uzun müddət sadiq qaldığı sufi fəlsəfəsi haqda da söyləmək olar. Bununla əlaqədar olaraq Zümrüd Quluzadə yazır: "Nəsimi yaradıcılığının mərkəzində lirik qəhrəmanın aşiq olduğu, onu yüksəldən, kamilləşdirən və öz nuruna qərq edən gözəl- Allah dayanır. İnsan üçün ən yüksək, ülvi duyğu həmin sevgilinin vüsalına yetmək, ona qovuşmaq, onda əriyib yox olmaqdır. Şair yazır ki, eşqi günah sayanların sözlərinə baxmayaraq, bu yoldan çəkinməyəcək. Çünki yalnız bu yol insanı tanrıya, həqiqətə çatdıra bilər." Lakin tədricən Nəsiminin dünyagörüşündə sufilik hürufiliklə əvəz olunur. Bu isə şairin panteist görüşlərindəki dəyişikliklə izah edilir:"Bu görüşlərin əsasında artıq eşq və sərxoşluq deyil, ağıl dayanmağa başlayır. Bu zamandan etibarən Nəsimi fəlsəfədə Nəiminin yaratdığı hürufiliyə tapınır və onun əsas müddəalarını təbliğ edir. Ancaq Nəsiminin təbliğ etdiyi hürufilik heç də Nəiminin yaratdığı təlimin təkrarı deyildi".

Nəsimi yaradıcılığı həm ilahi, həm də dünyəvi eşq, gözəlliyin təsvir və tərənnümü ilə zəngindir. Təriqət şeirlərində həqiqi, dünyəvi motivli əsərlərində isə məcazi məhəbbəti tərənnüm edən şairin bu iki yaradıcılıq qolu arasında başlıca fərq də ondadır ki, təriqət şeirlərindəki "dilbər" ilahi gözəllik və keyfiyyətlərə malik olmaqla Haqqın timsalı, yaxud özü, məcazi məhəbbət poeziyasında isə məşuqu adəm övladı, maddi aləmin subyektidir.

Nəsimi yaradıcılığında istər mötədil, istərsə də ifrat sufilərin təsiri aydın hiss olunur. Allahı dərk etməklə mövcud çoxluğun heçliyə varması, hər şeyin vahid varlığın təzahürü olaraq qalması fikrini qəbul edən Nəsimi yazır: "Faniyi mütləq olmuşam, Haqlayam, Haqq olmuşam." Beləliklə o, idrakda yəqinliyin elmi, eyni və həqiqəti mərhələlərini nəzərdən keçirir ki, onlardan birincisi bilik, ikincisi görmə, üçüncüsü Haqqa çatmaqdır.

### Nəsimi yaradıcılığında şəxsiyyət azadlığı və məhəbbətin tərənnümü...

Nəsimi yaradıcılığında insan amili, şəxsiyyətin azadlığı və məhəbbət ideyası qırmızı xətlə keçir. Bu səbəbdəndir ki, onun müxtəlif ideyalarla zəngin bədii irsi özündən sonra Azərbaycan və digər xalqların bədii-ictimai fikrinin inkişafına güclü təsir göstərib. Onun yaradıcılığı Azərbaycan dili və ədəbiyyatı tarixinin tədqiqində yeni mərhələ açıb. Ədəbiyyat tariximizdə fəlsəfi qəzəlin ilk kamil nümunəsini yaratmış ustad şair əruz vəzninin formalaşmasında misilsiz xidmətlər göstərib, əsərləri Yaxın və Orta Şərq xalqları ədəbiyyatına, İslam Şərqinin bir sıra şairlərinin yaradıcılığına təsir göstərməklə yeni ədəbi məktəb yaradıb. Öz ideyaları uğrunda mübarizə aparan, hətta son nəfəsində də bu ideyalardan dönməyən böyük tarixi şəxsiyyətin yaradıcılığı bütövlükdə haqsızlığa, ehkamçılığa, nadanlığa, zülmə üsyan idi. Şair qaranlıq bir mühitdə insanları və xalqları dostluğa, gözəlliyə, hünərə, buxovlardan azad olmağa səsləyir. O, feodal dünyasının ağır, amansız həyatından, hökmdarların zülm və istibdadından şikayətlənir, lakin zəmanəsindən narazı olmasına baxmayaraq ümidsizliyə qapılmır, ömrü bəxtiyar keçirməyə çağırır. Şair xalqları bir-birinə yaxınlaşdıran, mehriban edən bir amala doğru gedir, dini ixtilafları pisləyir, insanları bir-birinə düşmən edən mənasız məzhəb ayrılıqlarını qətiyyətlə rədd edir. Nəsiminin ən üstün cəhətlərindən biri isə onun Azərbaycan ədəbiyyatını mövzu, fikir və forma baxımından zənginləşdirməsi, dilimizin altı yüz il bundan əvvəlki zənginliyini bugünümüzə daşımaqla, eyni zamanda zəngin folklorumuzdan bəhrələnməklə möhtəşəm bir sənət dünyası yaratmasıdır.

### Ziya Bünyadov şairin ölümü haqqında hansı həqiqətləri üzə çıxardı?

Lakin maraqlıdır ki, bütün tarixi şəxsiyyətlər kimi, Nəsiminin həyatı və ölümü haqqında da birmənalı olmayan fikirlər var. Məsələn, ədəbiyyatdan və Nəsimi haqqında çəkilmiş filmdən şairin diri-diri edam edilərək dərisinin soyulduğunu görmüşük. Lakin mərhum akademik Ziya Bünyadovun Nəsimi barədə məqaləsində bu məlumatlara yeni yanaşmanın şahidi oluruq. Həmin məqaləsində akademik yazır ki, müasir Azərbaycan şərqşünasları Nəsiminin edamına aid faktları yalnız türk alimi Əbdülbaqi Gölpınarlının "İslam ensiklopediyasında"kı "Nəsimi" adlı məqaləsindən götürüb və bununla da kifayətləniblər. Məqalədə qısaca deyilir ki, Nəsiminin məhkəməsi və qətli məmlük sultanı əl-Müəyyəd Seyfəddin Şeyxin hakimiyyəti (1412-1421) və Hələb valisi Yaşbək ibn Abdulla əl-Yusifinin dövründə (1414-1424) olub. Bundan başqa, Nəsiminin əsl adı və haralı olması haqda məlumat da ayrı-ayrı ərəb mənbələrində müxtəlif cür göstərilir. Nəsimi Nəsiməddin adlandıran ərəb müəllifləri İbn Həcər Əsqəlani (1372-1449) Şəmsəddin Səxavi (1427-1497) və İbn əl-İmdad əl-Hənbəli yazır ki, Nəsiməddin Təbrizi 820-ci (1417) ildə Hələbdə öldürülüb: "Onun başını kəsib, dərisini soydular və cəsədini çarmıxa çəkdilər", yəni edam edildikdən sonra dərisi soyulub. 1920-ci ildə vəfat etmiş Məhəmməd Raqib ibn Mahmud ibn Haşim ət-Təbbaq əl-Hələbi isə Nəsiminin məhkəməsi və qətli haqqında bir qədər müfəssəl məlumat verir. Onun 1479-cu ildə vəfat etmiş Əbuzər Əhməd ibn Burhan İbrahim Sibt ibn əl-Hələbidən götürdüyü məlumatda deyilir ki, Nəsiminin qətli əmir Yaşbək ibn Abdulla əl-Yusifinin vaxtında olub. Ona qarşı ittiham Hələbin Ədalət Sarayında ibn Xətibin və Şəmsəddin ibn Əminəddövlənin hüzurunda irəli sürülüb. İttihamla onun əleyhinə hənəfilərin qazılar qazısı İbn əş-Şənqasi çıxış edib. Naib Yaşbək Nəsimiyə "Dediklərini sübuta yetirməlisən, yoxsa mən səni öldürəcəyəm"-deyir. Bu sözləri eşitcək İbn əş-Şənqasi ittihamdan imtina edir. Nəsimi isə iki dəfə kəlmeyi-şəhadətdən savayı bir söz demir və özünə qarşı deyilənləri inkar edir. Bu anda hənbəlilərin şeyxi Şihabəddin fitva verir ki, Nəsimi zındıqdır və tövbəsi qəbul olunmadan öldürülməlidir. Lakin son söz üçün Sultan əl-Müəyyədin fitvasını gözləyirlər. Nəsimi qala həbsxanasında saxlanarkın Sultan əl-Müəyyədin sərəncamı gəlir ki, Nəsimi öldürülüb dərisi soyulsun və yeddi gün Hələbdə car çəkilib bəyan edilsin, sonra da cəsədi parça-parça edilsin: bir qismi Əlibəy Zülqədərə və onun qardaşı Nəsrəddinə göndərilsin. Belə ki, guya Nəsimi onları da dindən çıxarmışdı. Məhəmməd Raqib yazır ki, Nəsimi onun adı ilə tanınmış təkyədə dəfn olunub, bu təkyə Hələbin əl-Ferafire məhəlləsində "Sultan hamamı" ilə üzbəüz və hökumət evinin yanındadır. Ora indi də "Nəsimi təkyəsi" deyirlər...

Beləliklə, akademik Ziya Bünyadov Nəsiminin diri-diri dərisinin soyulması barədə deyilənləri tamamilə inkar edir və bunu geniş kütlənin ona olan rəğbətinin təzahürü kimi qiymətləndirir. Bu rəğbətin inikasını isə elə ötən əsrin 70-ci illərində "Azərbaycanfilm"in çəkdiyi filmdə şairin edam səhnəsində izləyirik - Nəsiminin hətta bir damla qanının sıçradığı yerin belə kəsilməsi barədə fitva verilərkən qan fitva verənin öz barmağına sıçrayır, lakin o dərhal sözünü danır. Nəsimi isə onu aşağıdakı məşhur misraları ilə utandırır:

"Zahidin bir barmağın kəssən, dönüb Həqdən qaçar,
Gör bu miskin aşiqi, sərpa soyarlar, ağlamaz..."

***Samirə SƏFƏROVA***

**Yazı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi birgə müsabiqəyə təqdim etmək üçündür.**

# Bir ildə 15 min boşanma - Azərbaycan üçün çox deyilmi...

**Son illər boşanmaların sayı öncəki illərlə müqayisədə artır. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin yaydığı məlumatda qeyd olunur ki, ötən il Azərbaycanda rəsmi orqanlar tərəfindən 62,5 min nikah qeydə alınıb. SİA xəbər verir ki, 2018-ci ildə 14,9 min ailə boşanıb.**



## *Könül Vaqifqızı: ”12 ay ərzində 15 min şəxsin boşanması artıq təhlükədən xəbər verir”*

Qeyd edək ki, uzun zamandır boşanma hallarının sayının azalması üçün müəyyən maarifləndirmə işləri həyata keçirilsə də, rəqəmlərdən göründüyü kimi, nəticə olmayıb. Maraqlıdır, insanlar son zamanlar niyə boşanmaya bu qədər meylli olublar? Buna zəmin yaradan əsas hansı səbəblərdir?

**Psixoloq Könül Vaqifqızı "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, boşanmaların sayı günü-gündən artır:** "Bu gün ailə quran gənclər bir-birini tam tanımadan nikah masasına otururlar. Nəticədə isə boşanmaların sayı artır. Boşanmaların səbəbi çoxdur. Son zamanlar cütlüklər boşanmaya səbəb kimi iqtisadi çətinlik, böyüklərin müdaxiləsi və seksual zorakılığı göstərirlər. Seksual münasibətlər boşanmalara səbəb olan mühüm faktorlardan biridir. Məsələyə Azərbaycan reallığı ilə yanaşsaq, ər, ya arvadın məhz bu səbəbə görə boşandığını etiraf etməkdən imtina etdiyini görə bilərik. Boşanmaların səbəblərini araşdırmaq lazımdır. Ümumdünya statistikasına nəzər saldıqda boşanmaların 50 faizindən çoxuna səbəb olan amil kimi seksual münasibətlərin mühüm rol oynadığını deyə bilərik. Azərbaycanda boşanan tərəflər heç vaxt bunu etiraf etmirlər. Buna səbəb də sovet psixologiyasında seks deyə bir anlayış olmaması, heç kimin bu haqda danışmamasıdır. Azərbaycan ailəsində nə ər, nə də arvad həyat yoldaşından ayrılmasına səbəb kimi qarşı tərəfin onu yataqda yaxına buraxmadığını deyə bilir. Bu cür cütlüklərlə tez-tez söhbət apararam. Nəticə etibarilə körpə dünyaya gəldikdən sonra tərəflər arasında seksual münasibətlərdə soyuma yaranır. Bu, Azərbaycan reallığıdır. Təxminən 50 faizdən çox cütlüklərdə bu analoji hal müşahidə edilir. Cütlüklərin şüuraltı düşüncələrində "artıq nəsli davam etdirən var" deyə fikrin formalaşması tərəflər arasında soyuma yaradır".

Həmsöhbətimizin sözlərinə görə, maddi sıxıntı ailələrin dağılmasına səbəb olur: "Maddi sıxıntı hər zaman olub. 50-60-cı illərdə də bu olub. Lakin o vaxt maddi amillər mənəvi amillərin təsiri altında idi. Mənəvi amillər hər şeydən üstün tutulurdu. O zaman maddi sıxıntılar olsa da, ailədaxili ənənələrə görə ailə strukturu qorunur, bir o qədər də münaqişə baş vermirdi. Ailədaxili nizamı mənəvi amillər qoruyurdu. Lakin hazırkı dövrdə bu nizamı qoruyacaq mənəvi amillər üstün tutulmadığından, müxtəlif münaqişələr, söz-söhbətlər yaranır. Ailədaxili münaqişələr cəmiyyətdə maddi amillərin təsiri altında baş verir".

*”Bu gün ailə quran gənclər bir-birini tam tanımadan nikah masasına otururlar, nəticədə isə...”*

K.Vaqifqızı bildirdi ki, psixoloji durum, qaynana-qaynata müdaxiləsi boşanmaların sayının artmasında xüsusi çəkiyə malikdir. Boşanmaların artmasına səbəb olan əsas problem isə zorakılıq faktlarıdır: "Öncələr psixoloji problemlərin, sonra zorakılığın boşanmaya aparan yol olduğunu deyirdik. Amma son illər ailədaxili münaqişələr cinayətlərin sayının artmasında da əhəmiyyətli təsirə malik olub. Vaxtında müəyyən tədbirin görülməməsi nəticəsində boşanmalarla yanaşı, cinayət hadisələrinin də çəkisi artıb. Kənar müdaxilələr boşanmalar üçün sadəcə olaraq təkan rolunu oynayır. Qaynana-qaynata, baldız və digər yaxın qohumların müdaxiləri qeydə alınır. Amma onların müdaxiləsi boşanmaya sadəcə olaraq təkan verir. Səbəb kimi aparıcı rol oynamır. Ailədə hər şey qaydasındadırsa, hörmət, sevgi varsa, belə ailəni dağıtmaq çətin olur. Müəyyən problem yarandıqdan sonra ailələr arasında münaqişə başlayır. Həm qızın, həm də oğlanın ailəsi ailəyə müdaxilə edir".

Psixoloq onu da vurğuladı ki, aidiyyəti qurumlar boşanmaların qarşısının alınması ilə bağlı ciddi addım atmasa, vəziyyət daha da təhlükəli həddə çatacaq. 12 ay ərzində 15 min şəxsin boşanması artıq təhlükədən xəbər verir. Vəziyyətin daha da kritikləşməməsi üçün aidiyyəti qurumlar bir araya gəlib müəyyən işlər görməlidirlər".

*Günel CƏLİLOVA*

# Millətindən asılı olmayaraq hər kəsin azərbaycançılıq ideologiyası ətrafında birləşməsinin "sirri"...

**Günümüzdə azərbaycançılıq ideologiyasının təbliği, bu ideologiyanın cəmiyyət arasında geniş yayılması istiqamətində görülən işlərdən, həyata keçirilən tədbirlərdən danışan Türkiyə Universitetləri Məzunları İctimai Birliyinin sədri Çingiz Bayramov deyib ki, azərbaycançılıq ideologiyasının müasir dövrümüzdə təşəkkül tapması, inkişaf etdirilməsində ümummilli lider Heydər Əliyevin xidmətləri böyükdür, misilsizdir:**




"Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdən sonra xalqın, millətin bir ideologiya ətrafında birləşməsi zəruri idi. Müstəqilliyin ilk illərində mövcud olan başıpozuqluq, qeyri-müəyyənlik yad, kənar təsirlərin, hətta ideologiyaların belə Azərbaycana sirayət etməsinə səbəb olmuşdu. Ancaq 1993-cü ilin iyun ayında ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra həmin mənfi, yad təsirləri tədricən kənarlaşdırmağa nail oldu. Ulu öndərin müasir dövrün tələblərinə uyğun olaraq irəli sürdüyü azərbaycançılıq ideologiyası xalqın. millətin bu ideologiya ətrafında toparlanması, cəmlənməsinə vəsilə oldu". Çingiz Bayramov qeyd edib ki, 2001-ci ilin noyabr ayında ümummilli lider Heydər Əliyevin iştirakı ilə keçirilən Dünya Azərbaycanlılarının Birinci Qurultayı isə azərbaycançılıq ideologiyasının daha da geniş yayılması, eyni zamanda xaricdə yaşayan soydaşlarımızın da bu ideologiya ətrafında birləşməsi, fəaliyyət göstərməsi üçün mühüm əhəmiyyətli bir toplantı oldu: "Bu gün hər bir ölkə vətəndaşı azərbaycançılıq ideologiyası ətrafında birləşib. Azərbaycançılıq ideologiyasının əsas üstün cəhətlərindən biri ondan ibarətdir ki, bu ideologiya etnik və milli ayrıseçkiliyə qarşıdır, ifrat millətçiliyi qəbul etmir. Ona görə də ölkəmizdə yaşayan bütün digər xalqların nümayəndələri də azərbaycançılıq ideologiyası ətrafında birləşərək Azərbaycan dövlətində heç bir maneəsiz, qorxusuz yaşayırlar. Eyni zamanda onlar dövlətin, xalqın inkişafına öz töhfələrini verirlər".

Türkiyə Universitetləri Məzunları İctimai Birliyinin sədri deyib ki, azərbaycançılıq ideologiyasının günümüzdə geniş yayılması və xalqın bu ideologiya ətrafında sıx birləşməsinin şərtləndirən mühüm amillərdən biri də onun geniş aspektdə təbliği, bu istiqamətdə səmərəli maarifləndirmə işlərinin aparılmasıdır: "Xüsusilə qeyri-hökumət təşkilatları və ictimai birliklər qeyd etdiyimiz istiqamətdə fəallıq göstərir, böyüməkdə olan gənc nəsil arasında səmərəli təbliğat işləri aparırlar. Və onu da qeyd etmək yerinə düşər ki, aparılan təbliğat və maarifləndirmə işləri də öz uğurlu nəticələrini verir. Belə ki, gənclərimiz azərbaycançılıq ideologiyasını tam mənimsəyir, bu ideologiyaya sadiqlik nümayiş etdirir, həmin ideologiya əsasında vətənpərvər, millətçi, dövlətçi böyüyürlər. Çünki azərbaycançı olmaq həm də vətənpərvər olmaq deməkdir. Bu mənada, azərbaycançılıq ideologiyasının gənclər arasında təbliği, bu istiqamətdə maarifləndirmə işlərinin aparılması həm də vətənpərvərliyin təbliği deməkdir".

*Süleyman İSMAYILBƏYLİ*

**Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyilə ABUİB-in həyata keçirdiyi "Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının təbliği" layihəsi çərçivəsində çap olunur.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Nəsimi ili: klassik ədəbi irsə müasir baxış, milli və bəşəri ideyaların təbliği

**Nəsimi yalnız Azərbaycanın, Türk dünyasının deyil, bütün bəşəriyyətin əbədi azadlıq, hürriyyət günəşidir ki, 650 ildir bütün aləmə nur saçır. Nəsimi adlı günəş bəşəriyyətə Azərbaycandan doğub. Onun beşiyi Azərbaycanda qurulub, məzarı isə Hələbdə qazılıb. Yüz illərdir dahi Azərbaycan şairi, mütəfəkkiri, alimi İmadəddin Nəsiminin qəzəlləri, şeirləri, bədii-fəlsəfi əsərləri dünyanı dolaşır, xalqlara, ölkələrə, mədəniyyətlərə öz təsirini göstərir. Nəsiminin ədəbi irsi uzun illərdir dövrün, zamanın tələblərinə uyğun şəkildə araşdırılır, tədqiq edilir.**

Maraqlıdır ki, dahi şairimizin ədəbi irsi bütün zamanlar üçün aktualdır və nə qədər insan var, bəşəriyyət mövcuddur, Nəsiminin ölməz poeziyası, fəlsəfi baxışları öz əbədiyaşarlığını, gözəlliyini qoruyacaq.

650 il bundan əvvəl dünyaya gələn Nəsimi Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarından biri kimi öz ölməz əsərləri ilə bəşəriyyətin söz mədəniyyəti xəzinəsini daha da zənginləşdirib. Mütəfəkkir şair dərin poetik fikirlərlə fəlsəfi görüşlərin vəhdətində olub, dövrün elmi-fəlsəfi düşüncəsinin aydın ifadəçisinə çevrilib. Nəsimi poeziyasının, düşüncəsinin əsas obrazı, simvolu insan amilidir. O, kamil insan axtarışında idi və insanı saflığa, ədalətə, haqsızlıqla mübarizəyə səsləməklə onları pisliklərdən, şərdən arındırıb təmizləyirdi. Nəsimi dünya poeziyasının ən kamil nümunələri sırasında əhəmiyyətli yerə malik əsərlərində daim insanın əzəmətini, insani məhəbbəti və şəxsiyyəti, onların azadlıq uğrundakı mücadiləsini önə çəkib, tərənnüm edib. Heç şübhəsiz ki, Nəsimi anadilli poeziyamızın inkişafında, dilimizin qüdrətinin daha ifadəli şəkildə şeiriyyətdə yer tutmasında əhəmiyyətli rol oynayıb. Onun şeirlərinin humanist ideyalarla, yeni məzmun, deyim tərzi və bədii lövhələrlə zənginliyi hər zaman tədqiqatçılar tərəfindən qeyd edilib.

"Məndə sığar iki cahan, mən bu cahana sığmazam" - deyə bütün bəşəriyyətə insanın daxili arzu və istəklərini, şüuraltı bacarıqlarını ifadə edən Nəsimi bütün poeziyasını bu amal üzərində kökləyib.

Heç şübhəsiz ki, Nəsiminin yenidən xalqımıza və bəşəriyyətə qaytarılması, onun ölməz irsinin ölkəmizdə tədqiqata cəlb edilməsi, habelə dahi mütəfəkkirin xatirəsinin əbədiləşdirilməsi, irsinin nəşr olunması xalqımızın böyük oğlu Heydər Əliyevin adı ilə bağlıdır. Keçən əsrin 70-ci illərində öz geniş fəaliyyəti sayəsində tarixi-mədəni dəyərlərimizə münasibətdə əsaslı dönüş yaradan Heydər Əliyev Nəsimi irsinə də xüsusi münasibət göstərib. Məlumdur ki, Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyi UNESCO-nun tədbirləri siyahısına daxil edilib və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunub. Eyni zamanda, həmin dövrdən etibarən Nəsimi irsinin və bütövlükdə, klassik Azərbaycan mədəniyyətinin daha əhatəli araşdırılması istiqamətində mühüm addımlar atılıb. Nəsiminin yaradıcılığı artıq milli-mənəvi varlığımızın ayrılmaz tərkib hissəsidir. Azərbaycan ədəbiyyatı və incəsənətində Nəsiminin yaddaqalan obrazı yaradılıb, Bakının mərkəzində şairin əzəmətli heykəli ucaldılıb. Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutu Nəsiminin adını daşıyır.

Nəsimi irsinə qayğı və diqqət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən də davam etdirilib. Prezident İlham Əliyevin Sərəncamı ilə 2019-cu ilin görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar "Nəsimi İli" elan edilməsi dahi şairə verilən dəyərin ən yüksək göstəricisidir. Bu sərəncam həm də Azərbaycan mədəniyyətinin, zəngin tarixi-mədəni irsinin təbliğinə çox böyük töhfədir. Nəsimişünaslar bildirirlər ki, Nəsimini oxuyub dərindən başa düşmək üçün mütləq müqəddəs kitabımız Quranı bilmək vacibdir.

Azərbaycan poetik dilinin inkişafına böyük təsiri olan, əvəzsiz şair İmadəddin Nəsimi öz yaradıcılığı ilə mübarizliyi, sülhü təbliğ edib. Söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmiş bu filosof şair yalnız Azərbaycan deyil, eləcə də türk ədəbiyyatının təkmilləşməsinə töhfələr verib. Tədqiqatçılar qeyd edirlər ki, Nəsiminin yaradıcılığı bir sıra xalqların bədii-ictimai fikrinin inkişafına qüvvətli təsir göstərib.

Bütün bəşəriyyətin azadlıq, hürriyyət carçısı olan Nəsiminin 2017-ci ilin may ayında Parisdə, UNESCO-nun baş qərargahında vəfatının 600 illiyinin qeyd edilməsi, eyni zamanda da 2018-ci ilin sentyabr ayında ölkəmizdə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalının təntənəli şəkildə keçirilməsi ölməz şairin xatirəsinə dərin ehtiramın ifadəsi hesab oluna bilər.

Onu da bildirək ki, şairin sağlığında əsərləri Azərbaycan, Yaxın Şərq, İraq, Suriya, Orta Asiyada geniş yayılıb, XV əsrdən etibarən bütün türk ədəbiyyatına güclü təsir göstərib. Şairin əsərləri əlyazmalar şəklində dünyanın bir sıra kitabxanalarında saxlanır. Dahi şairin əsərləri dönə-dönə çap edilib, barəsində tədqiqat əsərləri yazılıb. UNESCO-nun qərarı ilə Nəsiminin anadan olmasının 600 illiyi dünya miqyasında geniş qeyd edilib.

AMEA-nın vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli qeyd edir ki, Nəsimi Azərbaycan hürufizm ədəbiyyatının görkəmli yaradıcısıdır. Onun bildirdiyinə görə, Nəsimi dünya ədəbiyyatında sarsılmaz iradəsi və möhkəm əqidəsi ilə şəxsiyyətin bütövlüyünün və əzəmətinin nümunəsini göstərmiş nadir sənətkarlardan biridir. Nəsimi böyük ədəbi məktəb yaradıb: "Seyid İmadəddin Nəsimi (1369-1417) görkəmli Azərbaycan şairi və mütəfəkkiridir. O, Azərbaycanın qədim elm və ədəbiyyat mərkəzlərindən biri olan Şamaxı şəhərində dünyaya gəlmişdir. Uşaqlıq və gənclik illəri burada keçən Seyid İmadəddin Nəsimi Şamaxıda mükəmməl mədrəsə təhsili almışdır. Bədii istedadı ilə diqqəti cəlb edən İmadəddin Nəsimi ilk şeirlərindən etibarən ədəbi mühitdə istedadlı cavan şair kimi qəbul olunmuşdur. Qardaşı Şah Xəndanın məzarının və türbəsinin Şamaxı qəbiristanlığında bu günə qədər yaxşı vəziyyətdə qalması və xalq tərəfindən ziyarət yeri kimi qəbul olunması İmadəddin Nəsiminin mənsub olduğu şəcərəyə Azərbaycan xalqının, yerli əhalinin bəslədiyi yüksək ehtiramı nümayiş etdirir. Müxtəlif ədəbiyyatlarda Nəsiminin doğum yerinə dair müəyyən ölkələr və şəhərlər barədə qeyd edilən versiyalar onun anadan olduğu yerə aid olmayıb, tərcümeyi-halının digər hadisələri, xüsusən hürufilik təriqətini yaymaq üçün etdiyi səfərlər, müvəqqəti məskunlaşdığı məkanlarla əlaqədardır. Belə ki, Nəsimi hürufizm ideyalarını yaymaq üçün Azərbaycan vilayətlərindən başqa həm də İranda, Türkiyədə, İraqda, Suriyada olmuş və geniş təbliğat işləri aparmışdır. Olduğu ölkələrdə Nəsiminin və hürufizmin əleyhdarları olduğu kimi, tərəfdarları da formalaşmışdır. Bütün çətinliklərə baxmayaraq, onlar ustadlarının adını və əqidəsini daim uca tutaraq yaşatmışlar.

İmadəddin Nəsiminin həyatda və sənətdə rəhbər tutduğu hürufilik təliminin görkəmli yaradıcısı Fəzlullah Nəimi Astrabadi (1340-1394) ilə əlaqələri də maraq doğuran mühüm hadisələrlə bağlıdır. Mənbələrdə haqlı olaraq bu əlaqələr mürşid-şagird münasibətləri kimi yüksək qiymətləndirilir. Öz dövrünün görkəmli şəxsiyyətləri olmuş bu böyük mütəfəkkirlərin əlaqələri haqqında müxtəlif versiyalar mövcuddur. Bir versiyaya görə, İmadəddin Nəsimi XIV əsrin 80-ci illərində hürufizm ideyalarını təbliğ etmək üçün Şirvana gələrək söhbətlər aparan hürufizmin ideya-nəzəri əsaslarını yaratmış Fəzlullah Nəimi ilə burada tanış olmuşdur. Elmi ədəbiyyatlarda da qeyd olunduğu kimi, yaradıcılığının başlanğıc dövründə "Hüseyni" təxəllüsü ilə şeirlər yazan İmadəddin Nəsimi hürufizmin böyük ideoloqunun təliminə maraq göstərmiş və bu təriqəti qəbul etmişdir. Fəzlullah Nəiminin qızı ilə ailə qurması da, sadəcə, tərcümeyi-hal göstəricisi olmayıb, Nəsiminin ustadı ilə bütün varlığı ilə bağlı olmasının, əqidə və amal birliyinin mühüm faktlarından biridir. Eyni zamanda, İmadəddin Nəsiminin Şirvandan ayrılıb son dəfə Türkiyə-Suriya səfərinə gedərkən Naxçıvana gəlib, Xanəgahda Fəzlullah Nəimi ilə görüşməsi haqqındakı rəvayətlər də ədəbi-ictimai fikir tariximizin nadir səhifələrindən biri olmaqla bərabər, onların arasındakı münasibətlərin dərinliyini nümayiş etdirir. Fəzlullah Nəimi hürufizmin mükəmməl nəzəriyyəsini, İmadəddin Nəsimi isə böyük poeziyasını yaratmış qüdrətli şəxsiyyətlərdir. Bundan başqa, İmadəddin Nəsiminin Şərqdə qəzəl janrında böyük şeir xəzinəsi yaratmış Hafiz Şirazi ilə yaxın münasibətlərinin olması onun dövrün ədəbiyyat aləmində əsas simalardan biri kimi qəbul edildiyini düşünməyə əsas verir".

Nəsiminin yaratdığı mənəvi kamillik konsepsiyası nəinki Şərq poeziyasına, eləcə də dünya poeziyasına ciddi təsir göstərib. Tədqiqatçılar qeyd edirlər ki, Nəsiminin poeziyasında nəsihətçilik arxa planda qalıb, həyat fəlsəfəsi və mübarizə ruhu ön mövqeyə keçib. Nəsimi Azərbaycandan getdikdən sonra müxtəlif fasilələrlə Türkiyədə, İranda, İraqda yaşamış, nəhayət, Suriyada olub, Hələbdə məskunlaşıb və olduğu yerlərdə hürufizm ideyalarını geniş şəkildə təbliğ edib. Onun təbliğ etdiyi hürufi ideyalar heç də hər yerdə birmənalı qarşılanmamış, müzakirə və mübahisə mövzusu olmuşdur. Mütəfəkkir şairin əleyhdarları bundan istifadə edərək, haqqında müxtəlif böhtan və şayiələr yaymışlar. Nəsiminin məsləyi yolunda faciəli şəkildə edam olunması onun sarsılmaz, möhkəm əqidəsinin isbatıdır. Buna baxmayaraq, Nəsiminin Suriyanın Hələb şəhərindəki məzarı xalq tərəfindən həmişə ehtiramla ziyarət olunmuş və bu məqbərə ibadətgaha çevrilmişdir. Çox təəssüf ki, son dövrlərdə Suriyada gedən acınacaqlı müharibə böyük şairin məqbərəsi və məzarı ətrafında da müəyyən dağıntılara səbəb olmuşdur. Azərbaycan ziyalılarının nümayəndə heyəti, tanınmış alimlər və şairlər bir neçə dəfə Nəsiminin məqbərəsini ziyarət etmişlər.

Məlum olduğu kimi Azərbaycanda Nəsimi irsinin tədqiqi və nəşri sahəsində böyük işlər görülüb və ilk dəfə tanınmış Azərbaycan ədəbiyyatşünası Salman Mümtaz görkəmli sənətkarın irsini toplayaraq kitab halında nəşr etdirib. Sonrakı illərdə şairin zəngin irsi daha geniş səviyyədə toplanmış, kütləvi tirajla nəşr edilərək xalqımıza çatdırılıb. Həmçinin, Nəsimi şeirindən müəyyən seçmələr ingilis, rus, fransız, alman, Ukrayna və sair dillərə tərcümə edilib yayılıb. Sirr deyil ki, bu gün Nəsimi irsinə, onun poeziyasına yeni baxış bucağının formalaşdırılması labüddür. Tədqiqatçılar qeyd edirlər ki, Nəsimi irsi Sovet dövründə həmin dövrün tələblərinə uyğun şəkildə tədqiq edilib. Hətta bir sıra qəzəllərinin, fəlsəfi əsərlərinin tərcüməsində ciddi təhriflərə yol verilib. Alimlərin bildirdiyinə görə, bu gün AMEA-nın müfaviq institutları tərəfindən Nəsimi poeziyası yenidən tədqiqata cəlb edilib, onun qəzəllərinin tərcüməsinə baxılır.

Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə İmadəddin Nəsiminin "Seçilmiş əsərləri" böyük tirajla nəşr edilərək ölkə miqyasında bütün kitabxanalara göndərilib. Son vaxtlar professor Qəzənfər Paşayevin yenidən təkmilləşdirilmiş şəkildə nəşr etdirdiyi Nəsiminin İraq divanı və naməlum şeirləri, AMEA Əlyazmalar İnstitutunda əldə olunan yeni əlyazma nüsxələri şairin irsinin toplanması və nəşri işinə daha geniş miqyasda bir daha qayıtmağın zəruriliyini aktuallaşdırıb. Bu gün M.Füzuli adına Əlyazmalar İnstitutu tərəfindən dünyanın müxtəlif muzey və kitabxanalarından Nəsiminin əlyazmalarının surətləri əldə olunur və həmin nüsxələr yenidən tədqiqata cəlb edilir. Hətta o nümunələr arasında indiyə qədər elmə məlum olmayan çoxlu əsər də var ki, Əlyazmalar İnstitutu həmin nüsxələri Türkiyə muzeylərindən əldə edib. Bəşər poeziyasının mənəvi kamillik simvoluna çevrilən Nəsimi irsi bütün zamanlar üçün əbədiyaşardır".

Nəsimi irsinə göstərilən diqqət, qayğı, eyni zamanda, Prezident İlham Əliyevin Sərəncamı ilə 2019-cu ilin "Nəsimi İli" elan edilməsi bizə imkan verir ki, Nəsimi irsini, onun bütün bəşəriyyətin tərəqqisinə gərək olan ideyalarını daha geniş miqyasda bütün dünyaya yayaq. Ölkəmizdə "Nəsimi İli" çərçivəsində keçirilən bütün tədbirlər, konfrans və simpoziumlar Nəsimi irsinin təbliğini hədəfləyib.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi birgə müsabiqəyə təqdim edilir.**

# "Qaloş piri" də gördük

**Sosial şəbəkələrdə Goranboyun Qurbanzadə kəndindəki pirdə çəkilən səs-küylü görüntülər müzakirələrə səbəb olub. Müzakirələrin səbəbi isə insanların nicat tapmaq üçün gəldiyi pirdə başına qaloş sürtdürməsidir. "Qaloş piri" adlanan yerə şəfa tapmaq ümidilə gələnlər niyyətlərinin qəbul olunması üçün başlarına qaloş sürtdürürlər. İddialara görə, qaloş burada yaşayan Seyid Miribiş ağaya məxsusdur.**



***Hacı Şahin Həsənli:** "Qaloşdan, papaqdan, geyimdən mədəd umanlar cahil insanlardır"*

***Hacı Təyyar Hüseynli:** "XXI əsrdə insanların kütləvi şəkildə hansısa əşyaya inanması gülüncdür"*

XXI əsrdə yaşamağımıza baxmayaraq, insanların hələ də hansısa seyidə məxsus geyimə inanması təəssüf doğurur. İnsanların geyimə, daşa inanması və arzularının gerçəkləşməsi üçün geyim sahibinə müəyyən məbləğdə pul və ya zinət əşyası təqdim etməsi acınacaqlı haldır. Bəzi işbazlar insanların cahilliyindən istifadə edərək asan qazanc yoluna əl atırlar. Bu kimi hadisələri köhnə türk filmlərindən görərdik. Müasir dövrdə insanların hələ də xurafata inanması təəccüb doğurur.

**İlahiyyatçı Hacı Təyyar Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, insanların qaloşa və ya hansısa geyim, əşyaya inanması inancların istiqamətlənməməsindən irəli gəlir:** "İnsanlar kömək üçün müraciət etdiyi gücü səhv salır. Onlar Yaradanın gücünə deyil, dünyanın hər yerində gülüşlə qarşılanan nəsnələrə inanır. İnsanlar zamanla kütləvi şəkildə aldadılıb. Məlumat üçün bildirim ki, pir sözü fars mənşəlidir və qoca deməkdir. Pir deyilən anlayış Azərbaycan cəmiyyəti üçün çoxdandan qalan məkana getmək deməkdir. "Qaloş piri" sözü səslənməsi belə təəccüb doğurur. Kiminsə "qaloş piri"ndə şəfa tapacağı gülməlidir".

Həmsöhbətimiz onu da vurğuladı ki, "qaloş piri" adlanan yerə gedən insanların hansı formada hipnoz olması sual doğurur. Bu işlə hansı və neçə işbazın məşğul olması araşdırılmalıdır: "Mənəviyyata ləkə olan bu kimi addımların qarşısı ciddi şəkildə alınmalıdır".

H.T.Hüseynlinin sözlərinə görə, o, vaxtaşırı olaraq sosial media vasitəsilə insanlara mütərəqqi islami dəyərləri çatdırmağa çalışır. Müsahibimiz qeyd etdi ki, bu kimi xurafatın, cəhalətin qarşısının alınması üçün sosial media vasitəsilə geniş islami maarifləndirmə işləri aparılmalı və xalqa həqiqətlər çatdırılmalıdır. Bəzi işbazlar xalqın inancından istifadə edərək onu öz yanlış təbliğatlarının qurbanına çevirirlər.

İlahiyyatçının sözlərinə görə XXI əsrdə insanların kütləvi şəkildə hansısa əşyaya inanması gülüncdür: "Cəlil Məmmədquluzadənin dövründə Şeyx Nəsrullah insanları aldadırdı. Eyni vəziyyət indi də yaşanır. Bu gün bəziləri şəfa tapmaq adı ilə "qaloş piri"nə inanır. Şəfa Allahdan gələr. Müasir dövrdə tibb elmi inkişaf edir. Tibb sahəsində çalışanlar "tam zəmanət" yoxdur ifadəsini işlədirlər".

İlahiyyatçı xüsusi olaraq vurğuladı ki, gündəmi zəbt edən "qaloş piri" aidiyyəti qurumlar tərəfindən incələnməlidir. İnsanların hipnoz edən işbazlar qanun qarşısında cavab verməlidirlər. Eyni zamanda, həmin ərazinin dini nümayəndələri hadisəyə müdaxilə edib, ictimaiyyətə məlumat verməlidirlər.

**Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi, ilahiyyatçı Hacı Şahin Həsənli də bildirdi ki, qaloşdan, papaqdan, geyimdən mədəd umanlar cahil insanlardır:** "Dinimizdə bütün ibadət formaları açıq şəkildə qeyd edilib. Bu tip əməllər xurafatdır. İnsanlar ziyarətgahlara gedə bilər, övliyalara hörmət əlaməti olaraq onların xatirəsini yad edə bilər, amma bunu göstəriş halına salmaq olmaz.

Kütləvi şəkildə bu kimi davranışlar doğru deyil. İnsanlar özləri də bilmədən bu addımla Allaha yaxınlaşdıqlarını düşünürlər. Lakin heç də elə deyil. İnsanın geyimlərdən, qaloşdan, papaqdan, geyimlərdən mədəd umması cahillikdir. Yenə deyirəm, fərdi qaydada məzar ziyarətləri, onların xatirəsini yad etmək normaldır. Amma bunu kütləvi şəkilə gətirmək və göstəriş xarakterli formaya salmaq, üstəlik, qarşılığında maddiyyət ummaq kökündən yanlış əməldir".

Onun sözlərinə görə, Həzrəti Yusifin köynəyindən bu qənaətə gəlib, belə bir əmələ inanılırsa, insanlar bunu yanlış anlayıb deməkdir: "Quran"da belə bir ayə var. Həzrəti Yusifin köynəyini Həzrəti Yaquba gətirirlər. O, köynəyi gözünə çəkir və gözləri açılır. "Quran"da bu ayə təbərrük adlanır. Amma bunun kütləvi şəkildə mərasim halına salınması yanlışdır. Ziyarətgahdan hər hansı bir parça gəldiyində insan onu öpüb, gözünün üzərinə qoyursa, burada Allaha şərik qoşmaq yoxdur. Amma bu cür insanların beynini yuyaraq, onları cahilliyə çəkmək səhvdir".

***Günel CƏLİLOVA***

# Toylarda mərsiyə?

**Toyun toy yeri, yasın da yas yeri var. Toy məclislərini əzarlığa çevirməyin heç bir müsbət tərəfi yoxdur. Son dövrlər bəzi dindar kəsimlər toy məclislərində musiqi səsləndirməyə qarşı çıxırlar və toylarda ağılar, müxtəlif buna bənzər mətnlər oxuyurlar, hətta bəzən Quran ayələri də səsləndirirlər.**



*"Çox adam bunu mənfi qarşılasa da, məclis iştirakçıları və həmin məclislərin "bəzəyi" olan və dinini qəpik-quruşa satan Taleh kimiləri..."*

***İsmayıl Əhməd:** "Təəssüf ki, bu gün dini təbliğ edən ruhanilər bunu mənfi qiymətləndirmirlər"*

Son zamanlar kütləvi xarakter alan bu cür toylara "dərviş toyu", "dini toy" kimi adlar verilməsi hallarına rast gəlirik. Təəssüf ki, bu şəkildə keçirilən "toylar"ın videogörüntüləri "YouTube" və digər kanallarda, eləcə də sosial şəbəkələrdə yayılır.

Dini toyların məşhur aparıcısı kimi tanınan Seyid Talehin, eləcə də digərlərinin iştirak etdiyi məclislərdən belə görüntülərə sıx-sıx təsadüf edilir. Onlar məclislərdə Həzrəti Əlini, həzrəti Fatiməni, həzrəti Həsən və imam Hüseyni mədh edən, onların qüdrətini vəsf edən parçalar səsləndirirlər. Hətta bir sıra hallarda məclislərdə onlara ağı da deyilir.

Dinşünasların fikrincə, bu gün Azərbaycanda dini tolerantlıq çox yüksək səviyyədə inkişaf etdiyindən, bəzi kəsimlər bu şəraitdən sui-istifadə edirlər. Ölkəmizdə həm sünni, həm də şiə məzhəbinə qulluq edən insanlara bərabər şərait yaradıldığını qeyd edən dinşünaslar hesab edirlər ki, toyların əza məclisinə çevrilməsi, burada mərsiyələr oxunması olduqca mənfi tendensiyadır. "Dərviş toyları" və dini toyların son zamanlar bir qədər geniş yayıldığını deyən dinşünasların sözlərinə görə, bəzi gənclər belə toylar keçirməyə maraq göstərirlər. Belə gənclərin xurafata meylli olduğunu deyən ekspertlərin bildirdiyinə görə, bu olduqca mənfi bir haldır. Vaxtilə "dərviş toyları"nın dul və evlənmək vaxtı keçən insanlar üçün edildiyini qeyd edən ekspertlər bu gün gənclərin öz toylarını yasxanaya çevirməsinin qarşısının alınmalı olduğunu vurğulayırlar. Belə toyların islam qaydalarına zidd olduğunu bildirən ekspertlər hesab edirlər ki, Azərbaycan xalqının toy adətləri bu kimi mənfi nümunələrlə təhrif edilməməlidir. Bir qrup xurafat yayıcısının toruna düşərək öz övladlarının toyunu yasxanaya çevirən valideynlərin qınanmalı olduğunu nəzərə çatdıran ekspertlərə görə, bu mənfi tendensiya məqsədli şəkildə müəyyən xarici qüvvələrin təsiri ilə yayılır. Azərbaycanın bəzi bölgələrində bu kimi halların daha kütləvi olduğuna diqqət çəkən ekspetlərin bildirdiyinə görə, ölkəmizdə Peyğəmbər ailəsinin ruhuna böyük sayğı və hörmət var. Məhərrəmlikdə onlarla bağlı kifayət qədər tədbirlər keçirildiyini və əzadarlıq edildiyini deyən dinşünaslar qeyd edirlər ki, İmam Hüseyn qəhrəmanlığı, cəsarəti və şəxsiyyəti gənclərə bir örnəkdir. Amma toylarda bu böyük şəxsiyyətə ağı deyilməsi, göz yaşı axıdılması qəbuledilən deyil. İslamda toy adətlərinə böyük sayğı bəsləndiyini bildirən ekspertlər hesab edirlər ki, bu gün bütün islam ölkələrində toylar həmin xalqların milli adət və ənənələrinə uyğun keçirilir.

**Tanınmış dini ekspert İsmayıl Əhməd də "Bakı-Xəbər"ə bu halın mövcudluğunu təəssüflə qarşıladığını bildirdi: "Bəli, bu kimi hallar müşahidə olunur.** Çox adam bunu mənfi qarşılasa da, məclis iştirakçıları və həmin məclislərin "bəzəyi" olan və dinini qəpik-quruşa satan Taleh kimiləri buna özü "dindir" deyir. Bunun qarşısını almağa əldə hər hansı bir əsas yoxdur. Onlara belə xoşdur, belə də edəcəklər".

Bunun mənfi təzahür olduğunu deyən İ.Əhmədin sözlərinə görə, bu kimi halların yayılmasına dini təbliğ edən ruhanilər mənfi münasibət bildirmirlər. "Təəssüf ki bu gün dini təbliğ edən ruhanilər bunu mənfi qiymətləndirmirlər. Əksinə, Taleh kimi ünsürlərə meydan yaradırlar və bu gedişlə yaxşıya doğru heç nə düzəlməyəcək. Bunun kütləvi hal alması çox mənfidir" - deyə İ.Əhməd vurğuladı.

***İradə SARIYEVA***

№ 101 (3999) ■ Qiymәti: 40 qәpik

BAKI XƏBƏR

11 İYUN 2019-cu il

www.baki-xeber.com

## Misir piramidaları necә tikilib? - yeni faktlar...

**Bu günә qәdәr dә Misir piramidalarının necә tikilmәsi barәdә mübahisәlәr davam edir. "Ölkә.az" bu gün oxucularına piramidaların inşasında sәsdәn istifadә edilmәsi barәdә kiçik araşdırma yazını tәqdim edir.**

Qәdim mәnbәlәrdә, әsasәn dә Çin mәnbәlәrindә bildirilir ki, o dövrdә dünyanın digәr xalqları kimi qәdim misirlilәr dә sәsdәn istifadә ediblәr. Bununla belә, müasir dәrsliklәrdә bu barәdә bir cümlә dә yoxdur. Dәrsliklәrdә yazılır ki, piramidalar çoxsaylı qul, daş bloklar, kәndirlәr vә bәsit texnologiyadan istifadә edilib. Ola bilәr ki, sәsin kömәyi ilә möcüzәlәr yaratmağın mümkün olduğu barәdә dәqiq mәlumatlar olmadığı üçün belә yazılır. Amma ötәn әsrin 30-cu illәrindә Tibetdә İsveçdәn olan avia mühәndis Henri Kyelson sәs levitasiyasını müşahidә edib. O, Tibet rahiblәrinin truba vә baraban, eyni zamanda xor ifası ilә 2 metr diametri olan daşları 400 metr hündürlüyә qaldırmalarını tәfәrrüatı ilә yazıb. Maraqlıdır ki, tәfәrrüatda rәqәmlәr, "Pİ" işarәsi vә digәr hәndәsi mәsәlәlәr yer alıb. Henri Kyelson digәr qәdim sivilizasiyaların da sәs levitasiyasından istifadә etdiklәrini bildirir. Mәsәlәn, mәbәd inşasında böyük nәaliyyәtlәri olan mayya hinduları tәkәri tanımırdılar, çünki, bu onlara lazım deyildi...

## Elan

Ramazanov Elçin Elman oğluna Azәrbaycan Dövlәt İqtisad Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Rzayeva Aynur Kәrim qızına Azәrbaycan Dövlәt İqtisad Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Ağayev Ağakişi Hәsrәt oğluna Azәrbaycan Dövlәt İqtisad Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Mәmmәdova Samirә Mәmmәdrza qızının adına, Bakı şәhәri, Abşeron rayonu, Mehdiabad qәsәbәsindә yerlәşәn 2 sot yarım torpaq sahәsinin çıxarışı itdiyi üçün etibarsız sayılır.

Mirzәyeva Aysel Rafael qızının adına, Abşeron rayonu, Novxanı kәndi, Z.Əliyeva 13 ünvanında yerlәşәn 0.13 ha torpaq sahәsinin çıxarışı itdiyi üçün etibarsız sayılır.

Rzayev Sәfәr Sabir oğlunun adına, Abşeron rayonu, Xırdalan şәhәri, S.Qarayev küçәsi, ev 3a, mәnzil 83 ünvanına "AAAF-İnşaat" MMC tәrәfindәn verilmiş müqavilә İH-B(b)/0013 vә maliyyә arayışı itdiyi üçün etibarsız sayılır.

Mәmmәdzadә Vüsal Faiq oğluna Azәrbaycan Dövlәt Bәdәn Tәrbiyәsi vә İdman Akademiyası tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Paşayev İslam Teyyub oğluna Daxili İşlәr Nazirliyi tәrәfindәn verilmiş müharibә veteranı vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Novruzәli Bәyәli oğlunun adına Bakı şәhәri, Qaradağ rayonu, Lökbatan qәsәbәsi, S.Orucov küçәsi, ev 15, mәnzil 9 ünvanının çıxarışı (qeydiyyat vәsiqәsi) itdiyi üçün etibarsız sayılır.

Hüseynli Elbәy Suliddin oğluna Nәrimanov Rayon Hәrbi Komissarlığı tәrәfindәn verilmiş hәrbi bilet itdiyi üçün etibarsız sayılır.

"M.İ.A. LUX" MMC-yә mәxsus (VÖEN 2700211241) lisenziya (081103) әlavәsi itdiyi üçün etibarsız sayılır.

## İqtisadiyyat Nazirliyi "Bakcell"i mükafatlandırdı

**Azәrbaycanın ilk mobil operatoru vә әn sürәtli mobil internet provayderi "Bakcell" şirkәti Korporativ Sosial Mәsuliyyәt (KSM) sahәsindә daha bir mükafata layiq görülüb.**

İyunun 4-dә Bakıda İqtisadiyyat Nazirliyi, Kiçik vә Orta Biznesin İnkişaf Agentliyi (KOBİA) vә Azәrbaycan Respublikası Sahibkarlar (İşәgötürәnlәr) Tәşkilatları Milli Konfederasiyasının (ASK) birgә tәşkilatçılığı ilә keçirilәn "Dövlәt sahibkarın әn yaxşı tәrәfdaşıdır" adlı konfransda "Bakcell" "Korporativ Sosial Mәsuliyyәt" nominasiyası üzrә mükafatlandırılıb. Mükafat iqtisadiyyat naziri Şahin Mustafayev tәrәfindәn "Bakcell" şirkәtinin rәhbәrinә tәqdim olunub.

Xatırladaq ki, bu ilin әvvәlindә "Bakcell" şirkәti "Milli KSM Mükafatı 2018? mükafatının qalibi olub. ASK, Azәrbaycan Gәnclәr Fondu vә "Proaktiv" şirkәtinin tәşkil etdiyi tәdbirdә "Bakcell"in SOS Uşaq Kәndlәri - Azәrbaycan Assosiasiyası ilә birgә hәyata keçirdiyi "Öz biznesinә başla vә tәkmillәşdir" layihәsi "Gәnc sahibkarlara dәstәk üzrә ilin layihәsi" nominasiyasında әn uğurlu KSM layihәsi elan edilib.

"Bakcell" artıq 10 ildir ölkәnin әn genişmiqyaslı Korporativ Sosial Mәsuliyyәt (KSM) proqramlarından biri olan "Bakcell Stars" proqramını hәyata keçirir. "Bakcell Stars"ın әsas istiqamәtlәrindәn biri xüsusi qayğıya ehtiyacı olan, valideyn himayәsindәn mәhrum olmuş vә aztәminatlı ailәlәrdәn olan uşaq vә gәnclәr üçün imkanlar yaratmaq, onların cәmiyyәtә inteqrasiyasının dәstәklәmәk, tәhsil vә iş imkanları ilә tәmin etmәkdir.

## "Nar" tәlәbәlәrin karyera qurmalarına dәstәk olmaqda davam edir

**"Nar" tәlәbәlәrin öz ixtisasları üzrә uğurlu karyera qurmalarına vә peşәkar inkişafına kömәk etmәk mәqsәdilә növbәti karyera sәrgisindә iştirak edib. Mobil operator Azәrbaycan Respublikası Tәhsil Nazirliyi vә Gәnclәr vә İdman Nazirliyinin dәstәyi, UNEC-in tәşkilatçılığı ilә "Gәnclәr üçün Əmәk Yarmarkası - 2019"da iştirak edib.**

"Nar" tәlәbә, magistr, mәzunlar, eyni zamanda, әlilliyi olan şәxslәr üçün satış, müştәri dәyәrinin idarә edilmәsi vә digәr vakant vәzifәlәrinә sәnәd qәbulu tәşkil edib. Bundan başqa, mobil operator universitetin tәlәbә vә mәzunlarına uğurlu karyera barәdә mәslәhәtlәr verib. "Nar" tәmsilçilәri ilә birbaşa ünsiyyәtdә olan tәlәbәlәr karyera imkanlarını dәyәrlәndirmәk, hәmçinin, bu şirkәtlәrin tәcrübә proqramlarında iştirak barәdә mәlumat әldә etmәk imkanı qazanıblar.

Gәnclәrin mәşğulluğunun tәmin edilmәsinә dәstәk göstәrmәk mәqsәdilә tәşkil olunan yarmarkada 50-yә yaxın şirkәt vә qurum iştirak edib. Karyera sәrgisinin keçirilmәsindә mәqsәd gәnclәrin mәşğulluğunun tәmin edilmәsinә dәstәk göstәrmәk, iş imkanlarını genişlәndirmәk, iş tәcrübәsi olmayan gәnclәr üçün karyera fürsәti yaratmaqdır.

Qeyd edәk ki, gәnclәrә dәstәk vә iş imkanlarına çıxışın tәmin edilmәsi "Nar"ın korporativ sosial mәsuliyyәt (KSM) strategiyasında yer alan istiqamәtlәrdәn biridir. "Nar"ın davamlı olaraq hәyata keçirdiyi KSM layihәlәri haqqında әtraflı mәlumatı nar.az saytından әldә etmәk olar.

"Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib. "Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrinin istifadәsinә verib. Nar" şәbәkәsi hazırda ölkә әrazisinin 97%-ni (işğal olunmuş әrazilәr istisna olmaqla) әhatә edir vә 7500-dәn artıq baza stansiyası ilә 2,2 milyondan çox abunәçiyә yüksәk keyfiyyәtli xidmәt göstәrir.





**Qoç** - Günün ilk yarısında yaradıcılıq potensialı yüksәkdir. Əvvәlәr çözә bilmәdiyiz bir neçә problemi asanlıqla hәll edәcәksiniz. Mәslәhәt vә göstәrişlәriniz yaxın әtrafınızdakı insanların xoşuna gәlәcәk.



**Buğa** - Kiçik problemlәr, xırda anlaşılmazlıqlar, sizi tәbdәn çıxaran nüanslar günüdür. Neqativ emosiyalar baş verәnlәri dәqiq qiymәtlәndirmәyә mane olur. Halbuki, işlәrin axarı o qәdәr dә pis deyil.



**Əkizlәr** - Əlverişli, işdә vә şәxsi münasibәtlәrdә yeni perspektivlәrlә imkanlar yaradan gündür. İctimai hәyatda aktiv iştirak edin. Tәdbirlәrә qatılın, vaxtınızı maraqlı keçirin. Nüfuzlu insanlarla görüş vә danışıqlarda xeyir var.



**Xәrçәng** - İşlә bağlı istәnilәn mәsәlәlәrin müzakirәsi üçün әlverişli gündür. Danışıqlar çәtin olsa da, emosiyaların әsiri olmayın. Mövqeyinizi tәmkinlә, sәbrlә müdafiә edin vә opponentlәrin rәğbәtini qazanın.



**Şir** - Günün ilk yarısında ehtiyatlı olun. Sәhvә yol vermәk çox asandır. Hesabat hazırlamaq, maliyyә mәsәlәlәrini hәll etmәk, alış-verişdә iri mәblәğdә pul xәrclәmәk mәslәhәt deyil. Müsbәt tәmayüllәrin tәsiri güclәnir.



**Qız** - Müsbәt tәmayüllәrin tәsiri güclüdür, gün ümumәn uğurludur. Lakin mәqsәdә çatmaq üçün ciddi sәy göstәrmәli olacaqsınız. Bәdxahlarınız irәlilәyişinizә mane olmaq, yolunuzda sәdlәr yaratmaq üçün әllәrindәn gәlәni edirlәr.



**Tәrәzi** - Sәbrli, dözümlü olun. Gün böyük uğurlar vә ya önәmli qәlәbә vәd etmir. Mәqsәdә çatmaq üçün vaxt gәrәkdir. Boş söhbәtlәrә qatılmayın, yoxlanmamış mәlumatlar yaymayın.



**Əqrәb** - Əlahiddә uğurlara rәğmәn, gün әlverişli deyil. Qәlәbәlәr sizә kiçik, mәğlubiyyәt vә ya uğursuzluq isә fәlakәt tәsiri bağışlayacaq. Bir qәdәr düşünün: heç dә pis olmayan nәticәlәr әldә olunub, qiymәtli tәcrübәyә yiyәlәnibsiniz.



**Oxatan** - İşlә bağlı problemlәrdәn qurtulmaq mümkün deyil. Bütün diqqәti işә yönәldin, sәhvlәri sıralamayın. Hәmkarlar vә tәrәfdaşlardan biri yaxşı mәslәhәt verәcәk. Fәqәt, hәr şeyә rәğmәn yalnız öz intuisiyanıza güvәnin.



**Oğlaq** - Günün ilk yarısı qarışıq, tәbәddülatlı vә әndişәli vaxtdır. Kiçik problemlәr, işdә anlaşılması mürәkkәb tәxirәsalmalar yaşanır. Nә baş verdiyini araşdırın, qayda yaradın.



**Dolça** - Aktiv hadisәlәrlә zәngin gündür. Darıxmağa vaxt olmayacaq. İşlә bağlı yeni tәlәblәr, sifarişlәr vә mәsәlәlәr peyda olur. Onları vaxtında hәll etmәyә çalışın. Liderlik keyfiyyәtinizi, tәşkilatçılıq qabiliyyәtinizi göstәrin.



**Balıqlar** - Asan gün deyil. Sağlam mәntiq vә praktiki davranış çәtinliklәrlә üzlәşirik, lakin bunlar sizinә әleyhinizә olsa da, gәrәkli nәticәlәr әldә edәcәksiniz.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*



## Dünyanın ilk sonsuzluq hovuzu yaradılacaq

**Londonda "Compass Pools" şirkәti tәrәfindәn 600 min litr hәcmli 360 dәrәcә mәnzәrәsi olan hovuzun yaradılması planlanır.**

55 mәrtәbәli beşulduzlu bir otelin üst mәrtәbәsindә yaradılması nәzәrdә tutulan hovuz dünyanın ilk sonsuzluq hovuzu olacaq. "AZƏRTAC" bildirir ki, bu barәdә hovuzun dizayneri vә texniki direktoru Aleks Kemsli deyib: "Biz bu bina üçün çox böyük texniki çәtinliklәrlә üzlәşirik, lakin bunu bәrabәr bir ilki hәyata keçiririk". Qeyd edәk ki, hovuzun tikintisinә 2020-ci ildә başlanılacaq.

***Hazırladı: Ramil QULİYEV***

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.